www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 31 iyul 2025-ci il Cümə axşamı № 132 (8742) Qiyməti 60 qəpik

**Xəbər**

## Naxçıvanın pulu tən yarı kəsildi - nə baş verir?

yazısı səh.6-da

**Gündəm**

### "5-ci kolon"un sonu - təhlükə sovuşdu(mu)



Ekspert deyir ki, Moskvanın uzantıları həm biznes sferasında, həm mediada, həm də QHT-lərdə qalır

yazısı səh.5-də

### Donor var, ehtiyac var, qanun isə imkan vermir

yazısı səh.14-də

### Separatçılar pullarını bu banka köçürürlər

yazısı səh.4-də

### Azərbaycan qazı Ukraynaya çatmamış Rusiyada "partlayış"

yazısı səh.9-da

### Üzərlik bu ölkələrdə narkotik hesab olunurmuş

yazısı səh.10-da

### Ev yıxan "adətlərimiz"- cehiz davası...

yazısı səh.13-də

### Daha 46 nəfərin diplomu tanınmadı

yazısı səh.12-də

### Rusiya ilə birgə komissiya ləğv olunur

yazısı səh.4-də

### Azərbaycanda ildə 1 adam 45 kilo ət yeyir

yazısı səh.13-də

### Ölkəmizdə kazino oyunları leqallaşdı

yazısı səh.10-da

### Kremlə yenilənmiş ultimatum - 10 gün qaldı...

yazısı səh.7-də

### İstilik tarifləri bahalaşdı

yazısı səh.2-də

# PAŞİNYANIN "QƏLƏMİ QIRILDI"- YERİNƏ ONU GƏTİRİRLƏR

Brüssel səbrinin tükəndiyini gizlətmir; bəs onu kim əvəz edə bilər? - bir ad çəkilir, amma...

yazısı səh.8-də




# "Kurortlar nazirliyi"ndən ciddi narazılıq

AHİK-in yollayış sistemi etimadı doğrultmadı: vətəndaşlar nədən narazıdır - təfərrüat

yazısı səh.3-də



Robert Prevostun Papa Leo XIV

### Bakı niyə Vatikanla yeni sənəd imzaladı?

yazısı səh.7-də



Vəfadar Misirov

*DİM rəsmisi:*

### "Bəzi abituriyentlər istintaqa cəlb edilib"

yazısı səh.12-də



### Rusiya Şahin Şıxlinskini axtarışa verdi

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 132 (8743) 31 iyul 2025



## Qabil Məmmədova 16 il qiyabi həbs

**Almaniyada yaşayan bloger Qabil Məmmədovun Azərbaycan Cinayət Məcəlləsinin 24 maddəsi üzrə qiyabi məhkəmə araşdırması başa çatıb.**

"Report" xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Elnur Nuriyevin sədrliyi ilə keçirilən prosesdə qiyabi hökm elan edilib.

Məhkəmənin hökmü ilə Q.Məmmədovun barəsində 16 il azadlıqdan məhrumetmə ilə bağlı ittihamedici hökm çıxarılıb.

Qeyd edək ki, Q.Məmmədov 2015-2017-ci illər ərzində ayrı-ayrı şəxsləri dövlət orqanlarında işə düzəltmək, onlara pensiya və sosial müavinət veriləcəyi adı ilə 10 nəfəri aldadıb. Həmin şəxslərdən 29 597 manat pul alıb.

Həmçinin Qabil Məmmədov sosial media hesablarından açıq terrorçuluğa çağırışlar edib.

İş üzrə toplanmış sübutların məcmusuna əsasən, Azərbaycanın hüdudlarından kənarda olduğundan ona ittiham elan etmək mümkün olmayıb. Qabil Məmmədova bu ilin yanvarında Binəqədi Rayon Məhkəməsinin qərarı ilə qiyabi həbs verilib.

## Azərbaycanda yaşı 100 olan neçə pensiyaçı var?

**Azərbaycanda hazırda yaşı 100 və daha yuxarı olan pensiyaçıların sayı 276 nəfərdir.**

Bu barədə "Report"un sorğusuna cavab olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib.

Qeyd olunub ki, onların 41-i kişi, 235-i qadındır.

Ən yaşlı pensiyaçı isə 135 yaşlı Lənkəran sakini Tamam Əli qızı Əzizovadır.

## Avqustun 2-dən Suriyaya təbii qaz ixracı başlayır



**Türkiyə şənbə günü - avqustun 2-dən etibarən Azərbaycandan Suriyaya təbii qaz tədarükünə başlayacaq.**

APA xəbər verir ki, bu barədə Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar açıqlama verib.

Nazirin sözlərinə görə, təbii qazın Suriyaya nəqli Azərbaycandan tədarük olunan qaz hesabına həyata keçiriləcək və proses şənbə günündən başlanılacaq.

## Rusiyadakı səfirimiz Rasim Balayevə cavab verməyib



**Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Rasim Balayevin məşhur aktyor Ceyhun Mirzəyevin qızı ilə bağlı müraciətini cavabsız qoyub...**

Bu barədə "Qaynarinfo"ya açıqlamasında ittifaqın katibi Əli İsa Cabbarov məlumat verib.

Onun sözlərinə görə, aktyorun qızı Cəmalə Mirzəyevanın Rusiyada küçələrdə yaşaması və onun qısa zamanda tapılması istiqamətində ittifaqın etdiyi müraciətə səfirlikdən rəsmi cavab verilməyib.

Xatırladaq ki, bir müddət öncə "Ögey ana" və "Fəryad" kimi məşhur filmlərdə rol almış mərhum aktyor Ceyhun Mirzəyevin qızı Cəmalə Mirzəyevanın Moskvada küçədə yaşadığını əks etdirən video yayımlanıb. Həmin videoya baxan sənət adamları, xüsusən də Ceyhun Mirzəyevin yaxın dostları mətbuata açıqlamalarında problemi diqqətdə saxlayacaqlarını bildiriblər.

Onlar eyni zamanda Cəmalə Mirzəyevanın tapılması istiqamətində Mədəniyyət Nazirliyinə də müraciət edəcəklərini vurğulayıblar.

# İstilik tarifləri bahalaşdı



**Əhaliyə göstərilən istilik təchizatı xidmətinin tarifləri müəyyənləşib. "Azəristiliktəchizat" ASC-dən daxil olmuş müraciət əsasında Tarif (qiymət) Şurasının iclasında əhaliyə göstərilən istilik təchizatı xidmətinin tarifi tənzimlənib.**

"Azəristiliktəchizat" ASC tərəfindən əhaliyə göstərilmiş istilik təchizatı xidmətinin maya dəyəri 1 kv/m sahə üçün aylıq 1,10 manat təşkil edir. Lakin bu sahə üzrə mövcud tarif maya dəyərindən bir neçə dəfə aşağıdır. Aradakı qiymət fərqi dövlət büdcəsindən ayrılan subsidiya hesabına qarşılanır. Qeyd edək ki, hazırda alternativ isitmə variantlarından istifadə edən əhalinin 1 kv/m sahənin 1 aylıq xərci isitmə növlərindən asılı olaraq, 1 manata qədər dəyişir.

"Azəristiliktəchizat" ASC tərəfindən əhaliyə göstərilən istilik təchizatı xidmətinə görə yumşaq tarif siyasəti həyata keçirilməklə optimal tarifin müəyyənləşdirilməsi qərara alınıb. Belə ki, əhali istehlakçı qrupuna göstərilən istilik təchizatı xidmətinin tarifi sayğac quraşdırılmadığı halda aylıq 1 kv/m üçün mövcud 30 qəpikdən 45 qəpik səviyyəsində təsdiq edilib. Sayğac quraşdırıldıqda isə 1 Qkal üçün (təqribən 40-50 kv/m sahə üçün) 14,6 manatdan 21 manat səviyyəsində müəyyənləşdirilib. Bu tarif tənzimləməsi "Azəristiliktəchizat" ASC-nin dövlət büdcəsindən asılılığının azalmasına, xidmətin keyfiyyətinin yüksəldilməsinə və dayanıqlığının təmin edilməsinə şərait yaradacaqdır.

Qərar dağ rayonlarında 2025-ci il 1 noyabr, digər ərazilərdə isə 2025-ci il 15 noyabr ta-



## 41 bağça müdiri işdən çıxarılıb

**Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən məktəbəqədər təhsil müəssisələri üçün keyfiyyət çərçivə sənədi hazırlanıb.**

Bunu Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Məktəbəqədər təhsilin təşkili şöbəsinin müdiri İlahə Rəsulova deyib.

"Bu sənədə əsasən 150 bağçada daxili keyfiyyət sisteminin qurulması üzrə monitorinqlər həyata keçirilib. Bu il əlavə 100 bağçada da keyfiyyət təminatı üzrə monitorinqlərin davam etdirilməsi planlaşdırılır. Agentlik və yerli təhsili idarəetmə orqanları tərəfindən aparılan prosesləri və inzibati işlər yoxlanılır. 2025-ci ilin yanvar ayından etibarən müxtəlif səbəblərə görə 41 müdir işdən çıxarılıb və100-dən çox müdirə inzibati tədbirlər tətbiq olunub", - şöbə müdiri qeyd edib.

## Qusman dövlət mükafatlarından məhrum ediləcək?



**Son zamanlar Rusiyadakı anti-Azərbaycan kampaniyasında ən çox önə verilən "simasız simalar"dan biri də "Ədalətli Rusiya - Həqiqət naminə" partiyasının sədri, Duma deputatı Sergey Mironovdur.**

"AzPolitika" xəbər verir ki, Azərbaycan əleyhinə bəyanatları ilə tanınan Mironov TASS-ın baş direktorunun keçmiş birinci müavini Mixail Qusmanın dövlət mükafatlarından məhrum edilməsini istəyib. Mironov bu barədə özünün Telegram kanalında paylaşım edib.

Mironovun sözlərinə görə, "Rusiya Federasiyası Konstitusiyasının 89-cu maddəsinə dəyişiklik etmək və Rusiya prezidentinə təkcə dövlət mükafatlarını təqdim etmək deyil, həm də onlardan məhrum etmək hüququnun verilməsinə" ehtiyac var.

Xatırladaq ki, iyulun 24-də Rusiyanın baş naziri Mixail Mişustin Mixail Qusmanı TASS-ın baş direktorunun birinci müavini vəzifəsindən azad edib. Bu qərarın səbəbləri sənəddə göstərilməyib.

Lakin hər kəsə məlumdur ki, əslən Bakıdan olan Qusman son Şuşa Media Forumunda iştirakına və Azərbaycan Prezidentinin ünvanına söylədiyi xoş sözlərə görə "cəzalandırılır".

## Elçin Məsiyev UEFA-dan təyinat aldı




**FIFA referisi Elçin Məsiyev UEFA-dan növbəti təyinat alıb. O, UEFA Superkubokunun PSJ (Fransa) - "Tottenhem" (İngiltərə) qarşılaşmasının dördüncü hakimi olacaq. Oyunu portuqaliyalı Joao Pedro Silva Pineiro idarə edəcək.**

Görüş avqustun 13-də İtaliyanın Udine şəhərində yerləşən "Fruili" stadionunda keçiriləcək.

## "Azəriqaz"ın vəzifəli şəxsi Rusiyada faciəvi şəkildə öldü

**Rusiyada Azərbaycan vətəndaşı bədbəxt hadisə nəticəsində vəfat edib. "Qafqazinfo"nun əldə etdiyi məlumata görə, "Azəriqaz" İstehsalat Birliyinin Zaqatala Regional Qaz İstismar İdarəsinin Ağdaş Xidmət sahəsinin böyük mühəndisi Şahid Kərimov Rusiyada dünyasını dəyişib.**

Belə ki, bir neçə gün əvvəl məzuniyyət götürərək istirahətə getmiş şəxs orada ehtiyatsızlıqdan yıxılıb.

Baş nahiyəsindən xəsarət alan Ş.Kərimov vəfat edib.




## Azərbaycanlılar bu ölkədən deportasiya edildi

**Gürcüstan Daxili İşlər Nazirliyinin Miqrasiya Departamenti və nazirliyin aidiyyəti struktur bölmələrinin koordinasiyası ilə son günlər ərzində keçirilən kompleks tədbirlər nəticəsində ölkədən 36 xarici ölkə vətəndaşı deportasiya olunub...**

Ölkənin Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, deportasiya edilən şəxslər Azərbaycan, Banqladeş, Belarus, Misir, Türkiyə, Türkmənistan, Hindistan, İordaniya, İran, Nepal, Nigeriya, Pakistan, Rusiya, Filippin və Çin vətəndaşlarıdır.

Onların hər birinə Gürcüstana giriş qadağası qoyulub.

Qeyd olunur ki, cari ay ərzində Miqrasiya Departamenti digər aidiyyəti qurumlarla birgə həyata keçirilən kompleks tədbirlər nəticəsində ümumilikdə 115 xarici ölkə vətəndaşını Gürcüstandan deportasiya edib. 2025-ci ilin ilk yeddi ayında isə deportasiya olunan xarici vətəndaşların ümumi sayı 640 nəfərə çatıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 233 faiz artım deməkdir.

Miqrasiya Departamenti Gürcüstan daxilində qanunsuz miqrasiyaya qarşı mübarizə aparan əsas məsul orqandır. Onun səlahiyyətlərinə ölkə ərazisində hüquqi əsas olmadan yaşayan xarici vətəndaşların müəyyən edilməsi və deportasiya olunması daxildir.

YENİ MÜSAVAT
N 132 (8742) 31 iyul 2025

# “Kurortlar nazirliyi”ndən ciddi narazılıq

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından (AHİK) narazılıqlar artır. Buna səbəb isə istirahət və ya müalicə üçün göndərişlərin verilməsində baş verən haqsızlıqlardır. Minlərlə insan illərlə çalışıb həmkarlar ittifaqlarına pul ödəsələr də, göndəriş əsasında istirahət mərkəzlərinə, sanatoriyalara gedə bilmirlər. Redaksiyamıza müraciət edən insanlar AHİK-in “Qaynar xətt”inin belə işləmədiyini bildiriblər. Eyni zamanda “online” müraciətlərin heç birinin təsdiqlənmədiyini qeyd ediblər.**

## AHİK-in yollayış sistemi etimadı doğrultmadı - vətəndaşlar narazıdır, ekspert islahat çağırışı edir; **Natiq Cəfərli:** “İnsanlar qrup şəklində məhkəməyə müraciət etsinlər”




Çoxsaylı şikayətlərdən sonra guya şəffaflığın təmin olunması məqsədilə onlayn müraciət sistemi istifadəyə verilib. Bu portal üzərindən qeydiyyatdan keçərək tətil üçün “putyovka” almağa çalışsalar da, müraciət edənlərin böyük əksəriyyəti əsassız şəkildə rədd cavabı aldıqlarını bildirir.

**“Yeni Müsavat” əməkdaşının dövlət qurumunda çalışan yaxını AHİK-in yeni sistemindən narazılığını belə ifadə edir**: “İyunun 4-də istirahət üçün ilk müraciətimi etdim, amma yalnız 19 iyulda mənə imtina cavabı gəldi. İkinci dəfə 18 iyulda yenidən sistem üzərindən müraciət etdim, bu dəfə də 25 iyulda yenə imtina aldım. Daha sonra Qaxdakı istirahət mərkəzindən mənə zəng gəldi ki, guya yer yoxdur, bu səbəbdən mənə yönləndirmə olunmayıb. İşə axın ki, AHİK-ə müraciət etmişdim, amma mənə istirahət mərkəzinin özü zəng vurur. Bu necə sistemdir?! Soruşanda dedilər ki, guya AHİK-dən göstəriş verilib ki, zəngləri istirahət mərkəzləri etsin. Bu isə tamamilə qeyri-peşəkar və dolaşıq mexanizmdir. Sanki məsuliyyəti üzərindən atmaq cəhdidir. Onu da deyim ki, illərdir dövlət qurumunda çalışıram və ilk dəfə idi ki, bu haqqımdan istifadə etmək istəyirdim”.

**Vətəndaşın sözlərinə görə, bu cür yanaşma bu quruma və yeni yaratdıqları online sistemə olan inamı ciddi şəkildə sarsıdır:** “Yaxınlarımız arasında da müraciət edənlər olub. Onlara elə istirahət mərkəzləri təklif olunub ki, yol kənarındadır, heç bir normal şəraiti yoxdur. Amma eyni zamanda sosial şəbəkələrdə, tanış çevrəsində görünür ki, ən yaxşı hotellərə, istirahət mərkəzlərinə ”əlçatan" olanlar da var. Sadə vətəndaş üçün isə bu yerlərə düşmək demək olar ki, mümkünsüzdür".

**Sosial şəbəkələrdə də AHİK-in yeni sistemindən narazılıq artır, vətəndaşlar fırıldaq, qeyri-şəffaflıq və biganəlikdən şikayətlənir. Pərvin Vəliyev adlı Facebook istifadəçisi AHİK-in fəaliyyətini sərt şəkildə tənqid edir və onu “yeni fırıldaq növü” adlandırır**: “Hər ay işçilərin əmək haqqından müəyyən miqdarda pul tutulur. Sonra ”e-ahik" adlı bir portal yaradıblar. Bu portala guya istirahət mərkəzləri, hotellərin adlarını yazırlar. Amma əslində yer olmayan hotellərin adları göstərilir. Beləliklə, müraciət edənlərin hamısına imtina cavabı verilir. Saytda yerləşdirilən telefon nömrələri isə ya saxtadır, ya da cavab verən yoxdur. Şəhər və daxili nömrələr, ümumiyyətlə, götürülmür. Şikayətə baxan da yoxdur".

**İlqar Quliyev adlı digər Facebook istifadəçisi isə AHİK-in təqdim etdiyi məlumatların reallıqla üst-üstə düşmədiyini konkret misalla izah edir:** “Avqust ayı üçün Qaxdakı "Eden Park" hoteli üzrə “ailə paketi” kateqoriyasında müraciət etdim. Cavab gəldi ki, boş otaq yoxdur, ona görə imtina edildi. AHİK tövsiyə etdi ki, növbəti aylar üçün yenidən müraciət edim. Sentyabr ayının 1-i üçün təkrar müraciət etdim - yenə eyni cavab: guya boş otaq yoxdur. Amma işin maraqlı tərəfi odur ki, hotelə özüm zəng etdim, qəbuldan mənə bildirdi ki, sentyabr ayına istənilən kateqoriyada boş otaqlar mövcuddur. AHİK-in mərkəzi operatorları isə hər zamankı kimi zənglərə cavab vermirlər, əlaqə yoxdur, şikayət imkanı yox dərəcəsindədir".

**İqtisadçı Natiq Cəfərli “Yeni Müsavat”a mövzu ilə bağlı danışarkən qeyd edib ki, həmkarlar ittifaqları ilə bağlı ciddi islahatlara ehtiyac var**: “Çünki bu qurum formal bir xarakter daşıyır. İnsanların maaşından müəyyən üzvlük haqqı tutulur, amma onlara hansısa praktik kömək edilmir. Ona görə də Həmkarlar Konfederasiyası 1 milyon 400 minə yaxın insanı birləşdirsə də, üzvlük haqqı toplasa da, onların həyatında iştirak etmir. Ona görə qanunvericilikdə də bu nəzərdə tutulub. Həmkarlar təşkilatına üzv olan insanlar özləri toplantı keçirib, həmkarlar təşkilatlarından narazılıqlarını və onlara iradlarını bildirə bilərlər. Təəssüf ki, bizdə bu praktika yoxdur. İstənilən halda həmkarlar ittifaqına üzv olan şəxslər qrup şəklində məktublarla ya AHİK-in özünə, ya da məhkəmələrə müraciət edərək öz haqlarını qoruya bilərlər”.

Bəs dünyada həmkarlar ittifaqları bu işi necə təşkil edir və hansı təcrübələr var? Bir çox Avropa ölkələrində həmkarlar ittifaqları dövlətlə əməkdaşlıq çərçivəsində üzvlərin istirahət və sağlamlıq ehtiyaclarını qarşılayan sistemlər qurub. Estoniyada, Finlandiyada, Almaniyada rəqəmsal müraciət platformaları vasitəsilə yollayış almaq mümkündür. Müraciətlər elektron şəkildə, şəxsiyyət identifikasiyası ilə aparılır, növbəlilik və sosial meyarlar əsas götürülür.

Finlandiya həmkarlar ittifaqları öz sanatoriya və istirahət mərkəzlərinə malikdir və üzvlər sistemə daxil olaraq onlayn formada yerlər bron edə bilirlər. Şəxslərə fərdi yox, bərabər əsaslı xidmətlər təklif olunur. Şərqi Avropanın bəzi ölkələrində isə istirahət göndərişləri sosial həssas qruplara prioritet verilməklə bölüşdürülür. Çexiyada, Slovakiyada və Polşada çoxuşaqlı ailələrə, aztəminatlılara, əlilliyi olanlara və ya sağlamlıq problemi yaşayanlara xüsusi üstünlük verilir. Müraciətləri müstəqil komissiyalar qiymətləndirir və səbəblər tam şəkildə açıqlanır. Qəbul olunmayan müraciətlərin səbəbi rəsmi məktubla izah olunur və şikayət mexanizmləri işləkdir.

Fransada həmkarlar ittifaqları sanatoriya və istirahət proqramlarını müstəqil nəzarət orqanlarının iştirakı ilə həyata keçirir. Nəzarət şuralarında üzvlər, maliyyə mütəxəssisləri və ictimai nümayəndələr təmsil olunur. Hər ilin sonunda həmkarlar ittifaqları üzvlərinə maliyyə hesabatı və fəaliyyət analizi təqdim edir. Bu isə inamı gücləndirir, sui-istifadə hallarının qarşısını alır.

Azərbaycanda da müraciətlərin şəxsiyyət vəsiqəsi ilə identifikasiyası, avtomatik qərar mexanizmləri qurulmalıdır. Eyni şəxslərin təkrar yollanması əvəzinə, üzvlər ədalətli növbə əsasında xidmət almalıdır. Həmkarlar ittifaqı fondlarının idarəsi müstəqil orqanların iştirakı ilə həyata keçirilməlidir. Hər ilin sonunda AHİK topladığı və xərclədiyi vəsaitlə bağlı ictimai hesabat təqdim etməlidir. Aztəminatlı və sosial həssas təbəqələr üçün xüsusi yerlər ayrılmalıdır. Həmkarlar ittifaqları yalnız əmək hüquqlarının müdafiəçisi deyil, eyni zamanda üzvlərinin sosial rifahını təmin edən bir qurumdur. Bu səbəbdən onların şəffaflığı, ədalətliliyi və hesabatlılığı cəmiyyətin sosial balansına birbaşa təsir edir. Azərbaycan da bu sahədə beynəlxalq təcrübələri öyrənərək və tətbiq edərək həm vətəndaş məmnuniyyətini, həm də həmkarlar ittifaqlarına olan inamı artıra bilər.

Qeyd edək ki, məsələ ilə bağlı AHİK-in mətbuat xidmətinə müraciət etmişik, hələ də cavab verilməyib.

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**

## Azərbaycanda kimlər işdən çıxarıla bilməz?

**Çox zaman bəzi şəxslərin pensiya yaşına 1-2 il qalmış işdən azad olunması hallarına rast gəlirik. Adətən bu zaman səbəb kimi ixtisar göstərilir. Belə hallarda isə vətəndaşlar əmək fəaliyyətini məcburi şəkildə dayandırmalı olur və daha sonra iş tapmaqda çətinlik çəkirlər.**

Bundan başqa, Azərbaycanın Əmək Məcəlləsi bəzi vətəndaş kateqoriyalarının işdən çıxarılmasını ya tam qadağan edir, ya da yalnız sonuncu növbədə mümkün sayır. Bu işçilərin hüquqları xüsusi qanunlarla qorunur.

Əmək Məcəlləsinə görə, kimlər işdən çıxarıla bilməz və ya ən son kimlər işdən çıxarıla bilər?

Məsələ ilə bağlı **“Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası”nın İcraiyyə Komitəsinin sədri Sahib Məmmədov** Cebheinfo.az-a açıqlamasında bildirib ki, qanunvericiliyimizdə belə bir məhdudiyyət yoxdur və olmasının da tərəfdarı deyil: “Bu məsələnin konkret mexanizmi yoxdur. Məsələn, Rusiya Federasiyası belə bir qanun qəbul etmişdi ki, pensiya ərəfəsində olan işçilərin işdən azad olunması məhdudlaşdırılsın. Amma həmin mexanizm işləmədi.

Əgər şəxs yaxşı işçidirsə, işəgötürən onu pensiya yaşına qədər niyə işdən çıxarsın ki? Belə bir tənzimləmə yoxdur. Digər tərəfdən, elə hallar olur ki, məsələn, işçi işə gəlmir, spirtli içki qəbul edir, əmək intizamını pozur, verilən tapşırıqları yerinə yetirmirsə, işəgötürən niyə onu işdən çıxarda bilməsin ki?

Belə vəziyyətdə işəgötürənin onu işdən çıxarma hüququ əlindən alına bilməz. Yəni belə məhdudiyyət qoyulduqda, bəzi işçilər sui-istifadəyə yol verir, işə gəlmir, deyirlər ki, onsuz da məni işdən çıxara bilməyəcək.

Ona görə də belə bir qanun yoxdur və belə bir qanunun qəbul olunması da məqsədəuyğun deyil, çünki işlək mexanizm yoxdur. İşəgötürən də çalışmalıdır ki, şəxs pensiya ərəfəsində olanda işdən çıxarılmasın. Dövlət orqanlarında da bu məsələyə müəyyən qədər həssas yanaşılır, ən azı 65 yaşa qədər işçiyə toxunulmur. Amma ümumilikdə qanunvericiliyimizdə belə bir məhdudiyyət yoxdur".

**Sahib Məmmədov qeyd edib ki, Əmək Məcəlləsində müəyyən kateqoriyadan olan şəxslərin əmək müqaviləsinə xitam verməк qadağandır:** “Məsələn, Əmək Məcəlləsində hamilə qadınların işdən azad olunması qadağan edilib. Amma pensiya yaşına az qalmış şəxslərin də bu siyahıya əlavə olunması, məncə, effektiv olmayacaq. Çünki işçi əmək intizamını pozursa, işçilərin sağlamlığına təhlükə yaradırsa, işəgötürənin istənilən vaxt onu işdən çıxartmaq hüququ olmalıdır”.

# Separatçı ermənilər pullarını bu banka köçürürlər

## Ermənistan Mərkəzi Bankının "Artsaxbank"ı himayə etməsi ondan xəbər verir ki, hələ də ərazi iddiaları havasındadırlar

**Ermənistanda üzdəniraq "artsax"a aid bankın "Homeplex" filialı açılıb. "Yeni Müsavat" xəbər verir ki, bu da separatçıların öz vəsaitlərini hansı ünvanda saxlayacağını göstərir. "Artsaxbank"a Ermənistan Respublikasının Mərkəzi Bankı nəzarət edir.**

Bu qondarma adla bağlı bankın açılması həm siyasi anlamda ondan xəbər verir ki, Ermənistanda ərazi iddialarını yaşatmağa çalışırlar. Digər önəmli detal isə separatçıların maliyyəsinin bu bank üzərindən həyata keçirilməsidir.

Nəzərə alaq ki, Qarabağdan köçən ermənilər arasında keçmiş cinayətkar rejimə xidmət etmiş xeyli xuntaçı var. Onlar illərlə sərvət toplayıb, varlanıb, pullarını da gedəndə aparmağa çalışıblar. Bundan başqa, ABŞ başda olmaqla, Qarabağ separatçılarına uzun illər xarici fondlardan vəsait köçürülüb.

İstisna deyil ki, həmin pullar İrəvanda fəaliyyətə başlayan "Artsaxbank"a transfer edilə bilər. Bu məsələdə Azərbaycanı narazı salan nüans isə hələ də "artsax" adı ilə müxtəlif subyektlərin Ermənistanda fəaliyyət göstərməsinə şərait yaradılmasıdır.

Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıyırsa, sülh danışıqlarında maraqlıdırsa, Qarabağın bizə aid olduğunu Praqadakı bəyanatdan tutmuş indiyə qədər hər platformada təsdiqləyirsə, nə üçün "ikinci erməni dövləti" iddiası kimi irəli sürülən "artsax" adı ilə subyektlərin fəaliyyətinə göz yumur?

Bu azmış kimi, sözügedən bank yeni açılıb, hətta erməni mediasında açılış mərasiminə dair görüntülər yayılıb. Sanki heç nə olmamış kimidir. Əslində rəsmi İrəvanın riyakarlığını ortaya çıxaran faktdır.

Azərbaycan Ermənistana bu yöndə təzyiqlərini gücləndirməlidirmi? Çünki Paşinyan da, spiker Simonyan da dəfələrlə bəyan edib ki, Ermənistan ərazisində "artsax" adı ilə fəaliyyət dövlət təhlükəsizliyinə təhdid yaradır.

**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Xəyal Bəşirov** "Yeni Müsavat"a şərhində bildirdi ki, qondarma rejimi, yaxud onunla bağlı "xatirələri" qoruyub saxlamaq istəyən qüvvələr var. O hesab edir ki, "artsax"ı yaşatmaq istəyən qüvvələr əslində Ermənistanın hazırkı hakimiyyətinin lazımi tədbirlər görməməsi səbəbindən belə addımlar atırlar: "Hesab edirəm ki, baş verənlərin səbəblərindən biri Ermənistan Konstitusiyasından hələ də Azərbaycana qarşı ərazi iddialarının çıxarılmamasıdır. Bu, həm də sülh müqaviləsinin imzalanması üçün mühüm iki əsas şərtdən biridir. Bu ilin mart ayında 17 bəndlik sülh müqaviləsi layihəsinin mətninin razılaşdırıldığı açıqlandı, lakin bu aylar ərzində sülh müqaviləsi imzalanmadı. Azərbaycan açıq şəkildə bəyan edir ki, Ermənistan ATƏT-in Minsk Qrupu adlı o bədnam, faktiki mövcud olmayan təsisatın de-yure ləğvi ilə bağlı mövqe ortaya qoymalıdır. Eyni zamanda Ermənistan Konstitusiyasında və digər normativ aktlarında Azərbaycana qarşı ərazi iddialarından əl çəkməlidir. Konstitusiyanın preambula hissəsində Azərbaycana qarşı ərazi iddialarının mövcud olduğu Ermənistanın Müstəqilliyi haqqında Bəyannaməyə istinad var. Bu, ləğv




edilməli, qanunvericilikdən çıxarılmalıdır. Ermənistan hakimiyyəti bu addımı atmayana qədər terrorçu qruplaşmalar, eyni zamanda Azərbaycanın antiterror tədbirləri keçirməsindən sonra ölkəmizin ərazisindən qaçandan sonra yenidən Ermənistan ərazisində baş qaldıran cinayətkar birliyin nümayəndələri öz fəaliyyətlərini davam etdirəcəklər, "artsax" toponimindən istifadə edərək bank da açacaqlar, digər təşkilatların, yaxud fondların yaradılması kimi addımlar da ata bilərlər. Bankın yaradılması separatçı düşüncələrə xidmət edən insanların maliyyə vəsaitləri yığması üçün əhəmiyyət kəsb edir. Məlumdur ki, Cənubi Qafqazda Ermənistanla Azərbaycan arasında münaqişənin həll olunmasında maraqlı olmayan qüvvələr var. Bu qüvvələrin bir çoxu erməni diaspor və lobbi təşkilatları adı altında dünyanın ayrı-ayrı dövlətlərində fəaliyyət göstərirlər. Onlar üçün rəmzi məna daşıyan "Artsaxbank"a maliyyə vəsaitinin köçürülməsi ilə gələcəkdə yenidən separatçı qruplaşmanın baş qaldırması prosesinin şahidi ola bilərik".

**X.Bəşirovun fikrincə, Azərbaycan müvafiq addımları atacaq:** "Biz beynəlxalq aləmdə Azərbaycana qarşı ərazi iddialarını özündə ehtiva edən belə bir bankın fəaliyyətinin qanunsuz olduğunu iddia edə bilərik. Əgər bankın adında hüquqi baxımdan ziddiyyət yaradan amil varsa, eyni zamanda bu, hər hansı dövlətin ərazi bütövlüyünə, suverenliyinə təhdid yaradırsa, bu, qanunsuzluqdur. Bu, həm ölkə qanunvericiliyi, həm də beynəlxalq hüquq baxımından qanunsuzdur. Hesab edirəm ki, bununla bağlı Azərbaycanın müəyyən addımları olacaq. Amma bizi maraqlandıran Ermənistan hakimiyyətinin atacağı addımlardır. Əgər Ermənistan hakimiyyəti Azərbaycanla sülh istəyirsə, Nikol Paşinyanın qeyd etdiyi kimi, Azərbaycanla müharibəyə deyil, sülhə hazırlaşdıqlarını sübut etmək istəyirlərsə, o halda Ermənistan tərəfi ya bankın fəaliyyətini dayandırmalı, ya da adının dəyişdirilməsi ilə bağlı tələb qoymalıdır. Əks təqdirdə, Ermənistanın atdığı addımları, eyni zamanda Paşinyanın fəaliyyətini görüntü olaraq sülhü, amma pərdə arxasında yenə də ərazi iddialarını və separatizmi müdafiə edən fəaliyyət kimi qəbul edə bilərik".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

# Rusiya ilə birgə sərhəd komissiyası ləğv olunur

## Azərbaycan-Rusiya-Ermənistan üçtərəfli formatı dörd ildir ki, formal olaraq qalır, o səbəbdən...

**Ötən ilin yazında Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin bir hissəsinin delimitasiyası üzrə razılaşma əldə olundu və nəticədə Azərbaycanın 4 kəndi - Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı Ermənistan tərəfindən Azərbaycana qaytarıldı. Bu kəndlər 1990-cı illərin əvvəllərində Ermənistan tərəfindən işğal edilmişdi və delimitasiya nəticəsində 30 ildən sonra Azərbaycanın nəzarətinə qaytarıldı.**

Buna baxmayaraq, Azərbaycanın hələ də Ermənistanın nəzarətində olan dörd kəndi qalır: Yuxarı Əskipara, Sofulu, Barxudarlı (bunlar Qazax rayonuna aiddir) və Kərki (bu isə Naxçıvanın Sədərək rayonuna daxildir).

Bu kəndlər Ermənistan tərəfindən 1990-cı illərdə işğal edilib və həmin vaxtdan bəri Ermənistanın nəzarətində saxlanılır. Azərbaycan rəsmi şəkildə bu kəndlərin də geri qaytarılmasını tələb edir və bunun növbəti mərhələdə həyata keçiriləcəyi gözlənilir.

Yeri gəlmişkən, 2021-ci ilin yanvar ayında yaradılmış Azərbaycan-Rusiya-Ermənistan üçtərəfli komissiyası dörd ildir ki, formal olaraq qalır. Azərbaycan və Ermənistan nümayəndələri delimitasiya və demarkasiya üzrə komissiya çərçivəsində mütəmadi olaraq görüşürlər. Rusiya rəsmiləri də etiraf edir ki, sözügedən komissiya işləmir. İşləməyən komissiyanın saxlanmasına nə ehtiyac var? Ola bilərmi ki, bu komissiya yaxın vaxtlarda ləğv edilsin?



**Milli Məclisin deputatı Azər Badamov "Yeni Müsavat"da bu komissiyanın ləğv olunması çağırışını etdi:** "44 günlük Vətən müharibəsindən sonra 2021-ci ildə sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin keçirilməsi üçün Azərbaycan-Rusiya-Ermənistandan ibarət üçtərəfli komissiya yaradılmışdı. Amma üçtərəfli komissiya effektiv fəaliyyət göstərə bilmədi. Ona görə də bu komissiya ləğv olunmalıdır. Hətta ləğv olunmasa belə, fəaliyyətsiz bir formal komissiyadır və elə ləğv olunmuş kimidir. Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası üzrə ikitərəfli komissiya fəaliyyət göstərir. Bizim iki dövlət arasında münaqişəli məsələlərin müzakirəsi üçün kənar vasitəçilərə ehtiyac qalmayıb. Hətta aramızda delimitasiya və demarkasiya olunmuş sərhəd hissəsi də ikitərəfli qaydada razılaşdırılıb həll olunub. İndi gündəmdə delimitasiya prosesinin davam etdirilməsi, Ermənistanın işğalı altında qalmış dörd kəndimizin qaytarılması məsələsi aktualdır. Delimitasiya ilə bağlı tələblərimiz Ermənistan tərəfindən qəbul olunur. Həm də Əbu-Dabi görüşündə dövlət başçıları komissiyaya fəaliyyətinin aktivləşdirilməsi ilə bağlı tapşırıq vermişdi. Bu baxımdan Azərbaycanla Ermənistan arasında danışıqların ikitərəfli qaydada baş tutmasında heç bir çətinlik yoxdur və bu danışıqlar daha nəticəyönümlü olur. Ölkələrimiz arasında rabitə kanalları mövcuddur və məsələləri razılaşdırmaq üçün biz birbaşa əlaqə saxlamaq imkanına malik olmuşuq. Kənar vasitəçilər isə işin ancaq yubanmasına xidmət edir. Bu baxımdan üçtərəfli komissiya lazımsız bir təsisatdır və ancaq ləğv olunmalı olduğunu hesab edirəm".

**Beynəlxalq münasibətlər üzrə şərhçi Şəhla Cəlilzadə də bir çox vacib məqamlara toxundu:** "Rusiya tarixi münaqişənin yaradıcısı kimi (1905-ci ildən bəri iki xalq arasında qarşıdurmanın üçüncü tərəfi olaraq) hazırda Ermənistan və Azərbaycan arasında münaqişənin həllində əsas vasitəçi olmaq istəyir. Buna görə müharibəni sonlandıran üçtərəfli bəyanatda Rusiya da vardı. Rusiya, 2021-ci ilin yanvarında sərhədlərin delimitasiyası və demarkasiyası üçün təsis olunan komissiyada da yer aldı. Lakin zamanla aydın oldu ki, Azərbaycan danışıqlarda üçtərəfli, yaxud çoxtərəfli formata deyil, Ermənistanla təkbətək danışıqlara üstünlük verir. Avropanın, ABŞ-ın, o cümlədən Rusiyanın vasitəçiliyi ilə keçirilən danışıqların nəticələri deyil, Azərbaycanın sahədə yaratdığı reallıqlar, hərbi və geosiyasi üstünlüyü sayəsində əldə etdiyi mövqe vəziyyəti diktə edir. Elə Azərbaycanın üstün mövqeyi sayəsində Rusiya sülhməramlı kontingentini 2024-cü ilin may-iyun aylarında Qarabağdan çıxarmalı oldu. Həmçinin Ermənistan anklav vəziyyətdə olan 4 kəndimizi məhz ikitərəfli danışıqlar nəticəsində ötən ilin aprelində əldə olunan razılaşma əsasında 2024-ün may ayında bir güllə belə atmadan geri qaytardı. Odur ki, Ermənistan da Azərbaycanla ikitərəfli danışıqlar formatını qəbul etməli oldu və bunun ən parlaq göstəricisi 9 iyul tarixli Əbu-Dabi görüşü idi. Hazırda Ermənistan daxilində daha 4 kəndimiz anklav vəziyyətdə qalmaqdadır, lakin şimaldan-cənuba doğru sərhədlərin delimitasiyası çərçivəsində proses davam edir. Prosesə dair iki ölkə arasında hər hansı fikir ayrılığının olmadığını bu ilin mayında Ermənistan Parlamentinin spikeri Alen Simonyan bəyan edib. Həmçinin Rusiyanın bu prosesdə iştirakının faktiki olaraq mövcud olmadığını və üçtərəfli formatın formal xarakter daşıdığını Rusiya baş nazirinin müavini Aleksey Overçuk da ifadə edib. Bu üçtərəfli formatın hazırkı şəraitdə ləğv olunması məqsədəuyğun deyil, çünki, Rusiya ilə Azərbaycan arasında təyyarəmizin vurulmasından sonra yaşanan və diaspora nümayəndələrimizə qarşı Rusiyada görülən tədbirlərlə gedərək artan ikitərəfli gərginlik fonunda belə bir qərar kənar, üçüncü qüvvələrin maraqlarına xidmət edə bilər. Odur ki, işlək olmayan, məsələn, ATƏT-in Minsk Qrupu kimi formatlar zamanın və şəraitin diktəsi ilə tarixin arxivində öz yerlərini alacaqlar".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Azərbaycandakı "5-ci kolon"un sonu - təhlükə sovuşdu(mu)

## Ekspert deyir ki, Moskvanın uzantıları həm biznes sferasında, həm mediada, həm də QHT-lərdə qalmaqdadır

**"Day.az" informasiya portalı Rusiya hakimiyyətində anti-Azərbaycan əhval-ruhiyyəsinin artmasının səbəbi barədə məqalə dərc edib. Məqalədə Azərbaycanda vəzifədən uzaqlaşdırılan Rusiya təsir şəbəkəsindən bəhs edilib.**

Yazıda həmin şəbəkənin üzvü olmuş bir neçə şəxsin adı da açıqlanıb. Vurğulanıb ki, 2020-ci ildə Vətən müharibəsi ərəfəsində Rusiyanın ölkədəki təsir dairəsinə qarşı ciddi zərbələr endirildi və şəbəkənin rəhbəri olan Ramiz Mehdiyev, eləcə də ordudakı uzantısının rəhbəri Nəcməddin Sadıkov vəzifədən kənarlaşdırıldı. Həmin dövr ərzində Əli Həsənov, Əbülfəs Qarayev, Elmar Məmmədyarov, Oqtay Əsədov, Azad Rəhimov, Eldar Mahmudov oxşar aqibətlə üzləşdi.



Rusiyayönlü şəbəkənin Azərbaycandakı daha bir üzvünün Azər Qasımov olduğu iddia edilib. Bu kontekstdə bir vaxtlar deputat olmuş, sonradan "yoxa çıxan" Elşad Mirbəşirin adı da xüsusi vurğulanıb, onun Rusiya şəbəkəsinin maraqlarına xidmət etməsindən bəhs edilib. Onun Rusiya FTX ilə əlaqələri üzə çıxdıqdan sonra o, ictimai arenadan və Sosial Tədqiqatlar Mərkəzindən uzaqlaşdırılıb.

Məqalədən belə anlaşılır ki, Moskvanın Azərbaycana qarşı tutduğu radikal mövqenin əsl səbəbi ölkəmizdə Rusiya şəbəkəsinə qarşı həyata keçirilmiş tədbirdir, bu siyasət Moskvanın, yumşaq desək, xoşuna gəlməyib.

Yada salaq ki, may ayında Rusiyanın ciddi nəşrlərindən olan "Vedomosti" belə bir xəbər yaymışdı ki, prezident Administrasiyası rusiyapərəst siyasətçiləri ("beşinci kolon") və informasiya siyasətini gücləndirmək qərarına gəlib. Bu sahə ilə məşğul olmaq Rusiya Prezidenti Administrasiyası rəhbərinin birinci müavini Sergey Kiriyenkoya və ona tabe olan idarələrin əməkdaşlarına həvalə edilib. Doğrudur, söhbət Ermənistandan gedirdi, amma o zaman da xüsusi sual kimi qeyd etmişdik ki, Azərbaycan hökumətinin ağıllı gedişləri nəticəsində rus qoşunlarının Qarabağdan rədd olub getməsindən sonra buradakı "5-ci kolon" da yetərincə zəiflədi. Lakin bu bizi qətiyyən arxayın etməməlidir. Çünki Rusiyanın ölkəmizdəki bağları zəif deyil. Biz ayıq olmalı, baş verən prosesləri yaxından izləməli və düşünülmüş gedişlər etməklə "5-ci kolon"un fəaliyyətini tam nəzarətdə saxlamalıyıq.

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov "Yeni Müsavat"a dedi ki, Rusiyanın keçmiş müstəmləkələrində, o cümlədən Azərbaycanda ona xidmət edən məmurların olması qeyri-adi hal deyil:** "Azərbaycanda uzun illər həmin məmurların mövqeyi və təsir imkanları geniş olub. Bütün sahələrdə və strukturlarda geniş təmsil olunublar və dövlət siyasətinin formalaşdırılmasında və icrasında söz sahibi olublar. Bunlar inkaredilməz faktlardır. Lakin ölkəni Rusiya təsirindən tam çıxarmaq və təhlükəsizliyinin daha etibarlı və güvənli təmini üçün son illər atılan qətiyyətli addımlar nəticəsində Kremlin bu imkanları məhdudlaşdırıldı. Amma tamamilə aradan qaldırmaq mümkün olmadı. Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin vəzifədən uzaqlaşdırılmasından sonra onun rəhbərliyi altında fəaliyyət göstərən Rusiyaya bağlı qüvvələr sıradan çıxarıldı. Onların bir çoxu öz postlarından kənarlaşdırıldı. Bununla paralel olaraq sovetdənqalma idarəetmə fəlsəfəsi və metodologiyası dəyişdirildi. Struktur və kadr islahatları aparıldı. Təbii ki, bütün bunlar heç də asan olmadı. Müxtəlif müqavimətlə üzləşsə də, proses ləng getsə də, Kremlin adamları yerlərini Qərb təhsili görmüş gənclərə vermək məcburiyyətində qaldı. Fikrimcə, hələ də Moskvanın uzantıları həm ali dövlət strukturlarında, həm biznes sferasında, həm mediada, həm də QHT-lərdə qalmaqdadır. Sadəcə olaraq, onlar hücrələrində əlverişli məqam gözləyirlər. Bu gün Ramiz Mehdiyev və PA-nın sabiq şöbə müdiri Əli Həsənovun kadrları hələ də imtiyazlı mövqelərini saxlamaqdadır. Təəssüf ki, "5-ci kolon" öz dəst-xəttini hansısa gözəgörünməz güclərin çətiri altında açıq şəkildə davam etdirməkdədir. İstefaya göndərilən və vəzifələrindən uzaqlaşdırılan Nəcməddin Sadıkovun, Əli Həsənovun, Əbülfəz Qarayevin, Elmar Məmmədyarovun, Eldar Mahmudovun və digərlərinin Rusiyanın adamları olması barədə istər cəmiyyətdə, istərsə də mətbuatda mütəmadi məlumatlar dolaşıb, müzakirələr aparılıb. Lakin Milli Məclisin keçmiş sədri Oqtay Əsədov haqqında belə fikirlərin yayılmasını eşitməmişəm. Mən onun həmin siyahıda olmasını zənn etmirəm. O ki qaldı Rusiyanın Azərbaycana artan təzyiqlərinin adamlarının vəzifədən uzaqlaşdırılması ilə bağlı olmasına, məsələnin buna bağlanmasını əsaslı saymıram. Rusiyanın, vurğuladığım kimi, kadrları hələ də hakimiyyətin müxtəlif qollarında və digər sahələrdə qalmaqdadır. Zəif fiqurlar da deyil. Rusiyanın imperiyapərəst və müstəmləkə siyasəti həmişə postsovet dövlətlərinə təhdid kimi qalır. Krem son dönəmlər postsovet məkanında varlığını möhkəmləndirmək və itirdiyi mövqeyini bərpa etmək yönündə hərəkətə keçib. Artıq biz daha hədələyici və davakar aqressiv ritorikanı aydın eşidirik. SSRİ xalqlar həbsxanası adından görünür ki, imtina etmək istəmir. Hesab edirəm ki, Prezident İlham Əliyev Rusiya faktorunu və Kremlə bağlı olan məmurları aradan nə qədər tez qaldırsa, o qədər təhlükəsizliyimizi qarantiyaya almış olarıq. Yuxarıda sadalanan məmurlar artıq ekslərdir. Fəaliyyətdə olanlar qorxuludur. Qeyd etdiyiniz kimi, Kreml ən vacib sahələri - müdafiə, təhlükəsizlik, xarici siyasət kimi həyati əhəmiyyətli sahələri, həmçinin qanunverici hakimiyyəti və digər təsisatları uzun müddət təsir altında saxlayıb. Biz təkcə dövlət idarəetməsindən deyil, siyasi partiyalardan da Kremlə bağlı qüvvələrin zərərsizləşdirilməsi məsələsinə diqqət yetirməliyik. Nəzərə almaq lazımdır ki, Rusiya əsrlər boyu heç dəyişmədi".

**Mövzu ilə bağlı təhlükəsizlik məsələləri üzrə ekspert, siyasi şərhçi İlham İsmayıl Sherg.az-a bunları deyib:** "Azərbaycan müstəqillik əldə etdikdən sonra Rusiya daim çalışıb ki, yalnız məxfi casus şəbəkəsi ilə kifayətlənməsin. Eyni zamanda "casus statusu" daşımayan, lakin təsir imkanlarına malik şəbəkə də formalaşdırsın. Bu təsir şəbəkəsi adətən səlahiyyət sahibi olan şəxslər arasından seçilir. Belə şəxslər Rusiyanın maraqlarına uyğun olaraq müəyyən proseslərə yön verə və daxili siyasətə təsir göstərə bilirlər. Onların bu fəaliyyətləri bəzən açıq şəkildə, bəzən isə daha gizli formada həyata keçirilir. Əksər hallarda bu şəxslərə fərdi səviyyədə müəyyən imtiyazlar və qarşılıqlı maraqlar təqdim olunur. Məsələn, onların bəzilərinin Rusiyada biznes fəaliyyəti ilə məşğul olmaları üçün şərait yaradıldığı barədə məlumatlar dolaşır. Ümumilikdə, "5-ci kolon" və təsir şəbəkəsi bir-birindən fərqləndirilməlidir. "5-ci kolon" daha çox təşkilatlanmış formada mövcud ola bilər. Lakin təsir şəbəkəsi ilə daim məqsədyönlü şəkildə iş aparılır, onlara tapşırıqlar və fəaliyyət istiqamətləri verilir. Bu əlaqələr bəzən rəsmi və ya qeyri-rəsmi qurumların fəaliyyəti fonunda, olduqca təbii və adi görünən şəkildə qurulur. Buna görə də arxa planda baş verənlər şübhə doğurmur".

**Ekspert qeyd edib ki, Qarabağ müharibəsi zamanı və ondan sonrakı dövrdə Rusiyanın təsiri altında olan bəzi şəxslər açıq şəkildə üzə çıxdılar:** "Onların bir çoxu qısa zamanda vəzifələrindən azad edildi. Həmin şəxslərin fəaliyyəti ilə bağlı detallı məlumatlar yəqin ki, müvafiq dövlət qurumlarına məlumdur. Odur ki, onlar barəsində müvafiq tədbirlərin görülməsi də mümkündür".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Şahin Şıxlinski axtarışa verildi, oğlu həbsdə qaldı



**Məhkəmə Yekaterinburqdakı Azərbaycan diasporunun rəhbəri Şahin Şıxlinskinin oğlu Mütvəli Şıxlinskinin dövlət məmuruna qarşı zorakılıq faktı ilə bağlı iki ay müddətinə həbs edilən oğlunun barəsində seçilmiş həbs-qətimkan tədbirini qüvvədə saxlayıb.**

Bu barədə vilayət məhkəmələrinin birləşmiş mətbuat xidməti məlumat yayıb.

Xatırladaq ki, onun həbsinə iyulun 1-də "Baku Plaza"nın yaxınlığında baş verən hadisə səbəb olub. O zaman təhlükəsizlik qüvvələri oğlu ilə avtomobilində gedən diaspor rəhbəri Şahin Şıxlinskinin saxlanılması üçün xüsusi əməliyyat keçirib. Onlar "Gelandewagen"in şüşələrini sındırmağa başladıqları zaman Mütvəlinin sükanı arxasında olduğu avtomobil geriyə doğru hərəkət edib və xüsusi təyinatlını vurub.

"Azərbaycan-Ural" ictimai təşkilatının və Yekaterinburqdakı Azərbaycan diasporunun rəhbəri Şahin Şıxlinski isə axtarışa verilib.

Bu barədə Rusiya Daxili İşlər Nazirliyi məlumat yayıb. Onun hansı maddə üzrə axtarıldığı açıqlanmayıb.

# Fələstin və Ermənistan Azərbaycanı müzakirə etdi

**Ermənistan xarici işlər nazirinin müavini Vaan Kostanyan Nyu-Yorkda keçirilən "İki dövlət prinsipi əsasında Fələstin məsələsinin sülh yolu ilə həlli"nə həsr olunmuş nazirlər konfransı çərçivəsində Fələstinin xarici işlər və diaspor üzrə dövlət naziri Varsen Ağabekyanla görüşüb.**

Teleqraf xəbər verir ki, həmsöhbətlər ikitərəfli münasibətlərin inkişafına toxunub, mümkün birgə proqramlar ətrafında fikir mübadiləsi aparıblar.

Erməni Diplomatik Məktəbi tərəfindən xarici diplomatlar üçün həyata keçirilən təlim proqramında fələstinli diplomatların iştirakı məmnunluqla qeyd olunub.

Vaan Kostanyan və Varsen Ağabekyan Cənubi Qafqaz (Ermənistan-Azərbaycan sülh prosesi) və Yaxın Şərqdə cərəyan edən proseslərlə bağlı fikir mübadiləsi aparıb.

YENİ MÜSAVAT
N 132 (8742) 31 iyul 2025

# Naxçıvanın pulu tən yarı kəsildi - nə baş verir?

Əslən muxtar respublikadan olan siyasətçilər hesab edirlər ki, 85 milyon manat dotasiya olduqca aşağı məbləğdir, bunun səbəbləri isə...




**Bu ilin I yarısında Azərbaycanın dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə 85 milyon manat dotasiya ayrılıb. Bunu Prezidentin Naxçıvandakı səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli sosial şəbəkə hesablarında bildirib. Onun sözlərinə görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 43,3% azdır.**

Xatırladaq ki, bu il mərkəzləşdirilmiş büdcədən Naxçıvana 285,7 milyon manat dotasiya ayrılması nəzərdə tutulur. Beləliklə, 6 aylıq dotasiya təxminən 60% icra edilib.

Bu vəsaitin azaldılması Naxçıvanın öz resursları hesabına inkişaf etdirilməsinə hesablanıb. Yada salaq ki, oxşar qərar bir neçə il qabaq Azərbaycanın bölgələri ilə bağlı verilib. Regionların iqtisadi inkişafına ayrılan vəsaitlər demək olar ki, dayandırılıb. Hazırda yerli icra orqanları və bütövlükdə bölgə özü-özünü dirçəltməli, saxlamalıdır. Üstəlik, bunun üçün potensial da var. Sadəcə, sahibkarlığın və aqrar sektorun inkişafı labüddür ki, rayonlarda daha çox iş yerləri açılsın.

İndi isə muxtar respublika ilə bağlı nəticəni görmək olar. Demək olar ki, Naxçıvan dotasiyadan yarıbayarı məhrum edilib. Bu da bölgənin öz potensialı hesabına inkişaf etməsi üçün nəzərdə tutulub.

Sadəcə, muxtar respublika ilə bağlı açıq qalan məsələlər var. Əvvəla, Naxçıvan rayonlardan xeyli fərqlənir. Yəni eksterritorial bölgədir.

Bu mənada dotasiyanın 43 faiz azaldılması bölgəyə necə təsir edəcək? Hazırda Zəngəzur dəhlizi də açılmayıb ki, quru yol təminatı olsun. Naxçıvanın Türkiyə və İrana quru çıxışı var. O baxımdan dotasiyanın azalması hansı iqtisadi nəticələrə səbəb ola bilər?

**Əslən Naxçıvandan olan siyasi şərhçi Heydər Oğuz** bildirdi ki, 85 milyon manat dotasiya olduqca aşağı məbləğdir. Onun fikrincə, rəsmi Bakının Naxçıvana bu yeni yanaşması yerli rəhbərliyə etimadsızlığın əlamətidir və mərkəzi hakimiyyət öz mövqeyində kifayət qədər haqlıdır: "Naxçıvanın indiki hakimiyyəti ilk işə başladığı zamanlar Azərbaycan büdcəsindən təkcə tikinti sektoruna 145 milyon manat ayrılmışdı. Amma Prezidentin Naxçıvan üzrə xüsusi nümayəndəsi Fuad Nəcəfli ilin axırına qədər həmin büdcədən 5 qəpik də xərcləyə bilmədi. Çünki Naxçıvandakı bütün tenderləri öz yaxın qohum və qardaşlarına vermək üçün saxtalıqlara yol vermişdi. Bu da Azərbaycanın müvafiq qurumları, o cümlədən Hesablamalar Palatası tərəfindən təsbit olunmuş və tenderin nəticələri ləğv olunmuşdur. Həmin hadisədən sonra Naxçıvanda audit yoxlamaları başlamış və bir çox yeyintilər ortaya çıxarılmışdı. Bu barədə Hesablamalar Palatasının çox sayda rəsmi məlumatları yayımlanmışdır. Yəni hansısa özəl mənbələrə deyil, açıq qaynaqlara əsaslanaraq bu fikirləri səsləndirirəm. Təbii ki, bu qədər yeyintinin və təcrübəsiz idarəçiyin hökm sürdüyü muxtar respublikaya heç bir mərkəzi hakimiyyət güvənə bilməz və ayrılan dotasiyalar da göstərir ki, Azərbaycan hakimiyyəti də güvənmir".

**Həmsöhbətimizin fikrincə, Naxçıvan Muxtar Respublikası çox ciddi iqtisadi potensiala malikdir və Azərbaycan hakimiyyəti də onun potensialından faydalanmaq üçün bir sıra proqramlar hazırlayıb:** "Məsələn, ötən il Naxçıvanda Sənaye Parkı yaradıldı. Fərmana əsasən, 310 hektar ərazidə yaradılacaq yeni Sənaye Parkında qeyri-neft sənayesi məhsullarının istehsalı nəzərdə tutulur. Bu isə nəticə etibarilə Naxçıvanda ixrac fəaliyyətinin genişlənməsi nəticəsində əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə və kadr potensialının formalaşmasına ciddi töhfələr verəcək. Maraqlıdır ki, Naxçıvanın yerli hakimiyyəti bütün bu prosesdən kənarda saxlanılacaq və Muxtar Respublikanın iqtisadi inkişafı birbaşa Bakının nəzarəti altında olacaq".

**Heydər Oğuz dedi ki, Naxçıvanda 100-dən çox filiz və 80-dən çox qeyri-filiz yataqları da var. Mis, molibden, qurğuşun, qızıl, gümüş və s. kimi. Bu yaxınlarda onlardan biri Culfa rayonunda yerləşir:** ""Ortakənd" qızıl yatağının istismarı üçün aktiv hazırlıq işləri aparılır və yatağın qızıl ehtiyatının 542 min unsiya olduğu bildirilir. Naxçıvanda həmçinin 250-dən çox mineral su mövcuddur ki, bu da Azərbaycanın mineral su ehtiyatının 60%-ni təşkil edir. Naxçıvan-Süst duz yatağında 90 milyon ton duz ehtiyatı var. Əlavə Nehrəm və Şəkərabad Qoşadizə duz yataqları mövcuddur. Bu yataqlarda 1,2 milyard ton duz olduğu proqnozlaşdırılır. Onu da xatırladım ki, ölkə üzrə daşduz yataqları yalnız Naxçıvanda mövcuddur. Bir sözlə, Naxçıvan öz təbii sərvətləri və coğrafi mövqeyi ilə Azərbaycanın ən ümid verən bölgələrindəndir. Amma bu potensialı ortaya çıxarmaq üçün muxtar respublikanın işini bilən idarəçilərə ehtiyacı var. Görünən isə odur ki, Naxçıvandakı yerli hökumət paytaxtın etimadını tam doğrulda bilmir, bu da ordakı quruculuq işlərini ləngidir. Və mərkəzi hakimiyyət məcburiyyət qarşısında qalıb Naxçıvanı da Bakıdan idarə edir. Dotasiyaların azalmasının da əsas səbəbi budur".

**Əslən Naxçıvandan olan, AĞ Partiya başqanının köməkçisi Mətləb Aslanov bu addımın atılmasında əvvəlki Vasif Talıbov dönəminin əsas rol oynadığını qeyd edib:** "Naxçıvana ayrılan dotasiya mərhələli şəkildə azaldılmalı idi. Naxçıvan, sadəcə, bir bölgə deyil, strateji əhəmiyyətə malik muxtar respublikadır. Burada sosial-iqtisadi sabitlik həm əhalinin rifahı, həm də Azərbaycanın ümumi təhlükəsizlik maraqları baxımından son dərəcə vacibdir. Əvvəlki rəhbərlik dövründə Naxçıvana ayrılan dotasiyaların böyük hissəsi mənimsənilib. Ayrılan vəsaitlər nə əhalinin rifahına, nə də infrastrukturun inkişafına xərclənib. Bu fakt artıq cəmiyyətə məlumdur. Yeni rəhbərlik - Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli isə əvvəlki illərdə ayrılmış vəsaitin böyük hissəsini xərcləməyərək büdcəyə geri qaytardı. Görülməli olan işlər icra edilmədi, tenderlər keçirilmədi. Ola bilsin ki, bu, ölkə rəhbərliyinin bu il üçün dotasiyanı azaltmaq qərarında rol oynadı. Amma unudulmamalıdır ki, əvvəlki rəhbərliyin korrupsiya əməllərinə görə bölgə əhalisi çətinlik çəkməməlidir. Rəhbərlik dəyişikliyindən sonra bir çox iş yerləri bağlanıb. Naxçıvan camaatı zəhmətsevər, işlək insanlardır. Amma iş yerlərinin olmaması insanları qonşu dövlətlərə üz tutmağa məcbur edir. Bu, strateji bölgədə əhalinin azalması kimi çox ciddi təhlükə yaradır.

Naxçıvanın Azərbaycanın digər bölgələri ilə birbaşa quru əlaqəsinin olmaması isə vəziyyəti daha da ağırlaşdırır. Gediş-gəliş hər zaman çətin olub. Zəngəzur dəhlizi hələ açılmayıb. Vətəndaşlar təyyarə bileti almaq üçün uzun növbələrdə dayanır, çox vaxt bilet ala bilmir və məcburiyyət qarşısında İran üzərindən avtobuslarla Bakıya gedirlər. İran-İsrail qarşıdurması fonunda bölgə dəfələrlə iqtisadi çətinliklər yaşayıb. Bu səbəbdən düşünürük ki, Zəngəzur dəhlizi açılana qədər Naxçıvana xüsusi iqtisadi yanaşma tətbiq olunmalı, dotasiyanın azaldılması isə mərhələli şəkildə həyata keçirilməlidir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**




## Sumqayıt Sənaye Parkına 6 milyardlıq investisiya

### Məhsullar dünyanın 70-dən artıq ölkəsinə "Made In Azerbaijan" brendi adı altında ixrac olunur

**Cənubi Qafqazın ən böyük sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkında hazırda investisiya portfeli 6 milyard manatdan çox olan 39 sahibkarlıq subyektinə rezidentlik statusu verilib ki, bunlardan da artıq 28-i fəaliyyət göstərir.**

Bu barədə İqtisadiyyat.az-a İqtisadi Zonaların İnkişafı Agentliyindən məlumat verilib.

Bildirilib ki, sahibkarlar tərəfindən görülən işlərə bugünədək 5,56 milyard manat investisiya yatırılıb, 6300-dən artıq daimi iş yeri yaradılıb.

2015-ci ildən 2025-ci ilin I yarımilliyi daxil olmaqla Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən ümumilikdə 14,37 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, bunun da 5,17 milyard manatlıq hissəsi ixracın payına düşür. Cari ilin I yarısında Sənaye Parkında 1,14 milyard manatlıq məhsul satışı olunub ki, bunun da 544,8 milyon manatlıq hissəsi ixrac edilib. Ötən ilin analoji dövrü ilə müqayisədə ixrac təqribən 20%-ə yaxın artıb.

Parkda istehsal edilən tikinti kimyəvilərin, polad və polimer boruların, sürtkü yağlarının, polimerlərin, karbamidin, müxtəlif çeşiddə kabellərin, şüşə lövhələrin, keramik plitələrin və s. məhsulların ixracı istiqamətində uğurlar əldə edilib. Əsasən bu növ məhsullar dünyanın 70-dən artıq ölkəsinə "Made In Azerbaijan" brendi adı altında ixrac olunub.

Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühiti yaradılıb. Belə ki, burada sahibkarlar dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin olunurlar. Həmçinin parkın rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından tam azad olunurlar. Parkın rezidentlərinə indiyədək 912 ədəd təsdiqedici sənəd verilib ki, bunun nəticəsində rezidentlər texnika və texnoloji avadanlıqların idxalı zamanı 400 milyon manatdan çox vəsaitlərinə qənaət ediblər.

# Bakı niyə Vatikanla yeni sənəd imzaladı?

## Komitə ilə Müqəddəs Taxt-Tac arasında anlaşma memorandumu reallaşıb; yeni Papanın Trampla əlaqələri bizim üçün fürsət pəncərəsi açır

**Vatikanın yeni rəhbəri - ABŞ-dan olan kardinal Robert Prevostun Papa Leo XIV taxta çıxmasından üç ay ötür. Yeni Papa ilə birlikdə Vatikanın dünya siyasətində daha fəal rol alacağı, xüsusilə də dinlərarası dialoq və dəyərlərə əsaslanan yeni geosiyasi münasibətlərdə daha təsirli olacağı gözlənilir.**

Azərbaycan isə bu dəyişiklikləri vaxtında analiz edib öz diplomatik kursunu uyğunlaşdırır. İyulun 28-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyası arasında dinlərarası dialoq sahəsində anlaşma memorandumu imzalanıb.

Memorandum tərəflər arasında dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi, qarşılıqlı anlaşma və tolerantlığın gücləndirilməsi məqsədilə təcrübə və məlumat mübadiləsini, həmçinin birgə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Sənəddə həmçinin dini təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsi əks olunub. Anlaşma memorandumunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov və Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti kardinal Corc Ceykob Kuvakad imzalayıblar.

Dövlət Komitəsinin sədri Ramin Məmmədov imzalanan memorandumun dinlərarası harmoniya və mədəni müxtəlifliyin təşviqinə mühüm töhfələr verəcəyinə, bu dəyərlərin tanıdılmasında mühüm rol oynayacağına əminliyini ifadə edib.

Ölkəmizdəki dini mühit barəsində məlumat verən komitə sədri qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasəti beynəlxalq hüququn prinsip və normalarına əsaslanır. Azərbaycanda dini konfessiyalar arasında qarşılıqlı hörmət, anlaşma mühitinin gücləndirilməsinə xüsusi diqqət yetirilir.

R.Məmmədov söyləyib ki, torpaqlarımız işğaldan azad edildikdən sonra atılan əsas addımlardan biri də erməni vandalizminə məruz qalmış dini abidələrin bərpası və yenidən qurulması prosesidir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu məqsədlə işğaldan azad olunmuş ərazilərimizdə böyük layihələr həyata keçirir.

Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti kardinal Corc Ceykob Kuvakad Azərbaycanla Vatikan arasında yüksək səviyyəli əməkdaşlıqdan məmnunluğunu ifadə edib, Roma Papaları II İoann Pavel və Fransiskin ölkəmizə səfərlərinin əlaqələrimizin inkişafındakı roluna toxunub.

Kardinal eyni zamanda sənəd çərçivəsində həyata keçiriləcək layihələrin dinlərarası harmoniya və mədəni müxtəlifliyin təşviqində mühüm rol oynayacağına əminliyini ifadə edib. Memorandumun təsdiqlənməsi və imzalanmasında verdiyi dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə ehtiramını bildirib. İmzalanma mərasimində Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda fövqəladə və səlahiyyətli səfiri İlqar Muxtarov iştirak edib.



Yeni Papa Leo XIV Avqustinian ordeninin üzvü olmaqla, "yoxsulluq andı" ideologiyasını təmsil edir. Bu, o deməkdir ki, o, Vatikanın gələcək siyasi xəttində daha çox mənəvi və ideoloji prinsiplərə söykənəcək. Bu isə Azərbaycan kimi iqtisadi alətlərdən məharətlə istifadə edən dövlətlər üçün ciddi maneə deyil, əksinə, bu yeni şəraitdə dəyərlər üzərində qurulacaq diplomatik manevrlər üçün əlavə imkanlar yaradır.

Qeyd edək ki, Azərbaycan Respublikası və Müqəddəs Taxt-Tac arasında diplomatik münasibətlər 23 may 1992-ci ildə qurulub. Azərbaycanın Müqəddəs Taxt-Tacda səfirliyi 2022-ci ildə fəaliyyətə başlayıb. Tərəflər arasında indiyə qədər 9 sənəd imzalanıb, qarşılıqlı səfərlər olub. Odur ki, Vatikan-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Azərbaycanda 2000 katolik var. Bakıdakı Bakirə Müqəddəs Məryəm katolik kilsəsi ölkədə yeganə belə kilsədir.

Maraqlıdır, Vatikanla əlaqələr niyə bu qədər önəmlidir, yeni anlaşma sənədini doğuran səbəblər nədir?

**AMEA-nın əməkdaşı, siyasi elmlər üzrə fəlsəfə doktoru Züriyə Qarayeva** "Yeni Müsavat"a bildirib ki, Vatikan təkcə xristianların dini məbədi deyil, dünya siyasətinin əsas mərkəzi sayılır. Onun fikrincə, Azərbaycan-Vatikan əlaqələrinin inkişaf etdirilməsinə həm də bu nöqteyi-nəzərdən yanaşmaq lazımdır. Politoloq Vatikanla əməkdaşlığımızın ermənilər üçün arzuedilməz olduğunu da nəzərə almağa çağırır: "Xatırlayırsınızsa, Vatikandakı Qriqorian Pontifik Universitetində Qafqaz Albaniyası irsinə həsr edilən beynəlxalq elmi konfrans keçirilmişdi. AMEA-nın Tarix və Etnologiya İnstitutu da iştirak etmişdi. Ermənilər bundan ciddi şəkildə narahat olmuşdular. Çünki uzun illər Vatikandan dəstək almağa çalışıblar. Bu mənada Azərbaycanın Vatikanla əlaqələrinin genişlənməsi onların da əl-qolunun bağlanmasında mühüm rol oynayır".

**İmzalanan son memoranduma gəldikdə, Z.Qarayevanın sözlərinə görə, Vatikanla münasibətlərin şaxələndirilməsi üçün növbəti addım atılıb, ən əsası isə bunun yeni Papa dönəmində reallaşması zəruri idi:** "Bundan əvvəlki Vatikan rəhbərləri Azərbaycana səfər ediblər. Yeni Papa Leonun da ölkəmizə təşrif buyurması arzulanardı. Dünyanın bütün siyasi qüvvələri Vatikanla əməkdaşlığa xüsusi həssaslıqla yanaşır. Ona görə Azərbaycan üçün bunun əhəmiyyəti böyükdür. Burada digər vacib fakt yeni Papanın amerikalı olmasıdır. Onun Ağ Ev lideri Donald Trampla əlaqələri haqda məlumatlar var. Son zamanlar isə Azərbaycan-ABŞ münasibətlərində bir hərəkətlilik var. Dövlət başçımız Trampla bağlı mövqeyini açıqladı, ABŞ prezidenti də cənab İlham Əliyevin çıxışını paylaşdı. Düşünürəm ki, yeni Papanın Trampla yaxın əlaqələri Azərbaycan üçün ayrıca bir xətt olaraq əhəmiyyət kəsb etməkdədir. Belə demək mümkündürsə, burada həm dinlərarası əməkdaşlıq, həm siyasi elementlər var".

**Onun fikrincə, Ermənistan bu nöqtədə ciddi şəkildə geridə qalaraq, əhəmiyyətli bir diplomatik fürsəti əldən verib:** "Bakı isə son illərdə Vatikanla əlaqələrini mühüm şəkildə genişləndirib. Diplomatik təmaslar, mədəniyyət və dinlərarası dialoqa yönəlik təşəbbüslər vasitəsilə Azərbaycan Vatikanın diqqətini çəkməyi bacarıb. Ermənistan əksinə, bu sahədə həm təşəbbüssüz, həm də qeyri-fəal davranış sərgiləyib".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**



# Kremlə yenilənmiş ultimatum - 10 gün qaldı...

## Trampın bu xəbərdarlıqlarının ardınca əməllər olacaqmı?

**ABŞ Prezidenti Donald Tramp Rusiya diktatoru Vladimir Putinlə aylarla şəxsi təmaslardan sonra Ukraynada sülh razılaşması üçün Rusiyaya verdiyi vaxtı qəfildən qısaldıb. İndi zaman əlli deyil, on-on iki gündür. Amerika mediasının yazdığı kimi, ABŞ prezidentinin sözləri dərin məyus olduğundan xəbər verir. Bəs bu xəbərdarlıqların ardınca əməllər olacaqmı? Və hansı addımlar olacaq?**

Ayna.az xəbər verir ki, bu sözləri **ukraynalı politoloq Vadim Denisenko** yazdığı analitik məqalədə qeyd edib.

Ekspertin sözlərinə görə, vəziyyəti anlamaq üçün böyük analitik olmaq lazım deyil: "Yeni ultimatumun katalizatoru ABŞ-Avropa İttifaqı razılaşması oldu. Amma bir daha deyirəm - bu, yalnız müəyyən proseslər üçün katalizatordur. Görünür, Donald Tramp Aİ ilə razılaşma müddətinin əvvəl Rusiyaya verdiyi əlli gün içində olacağını düşünübmüş. Amma sazişin tez imzalanması digər prosesləri sürətləndirir".

"Bu aysberqin sualtı hissəsində nə olduğunu yalnız təxmin etmək olar. Ancaq gəlin ABŞ prezidentinin bundan sonrakı hərəkətləri ilə bağlı hətta versiyalar deyil, fərziyyələr irəli sürməyə çalışaq. Birincisi, mən Donald Trampın Baltik dənizində gəmiçiliklə bağlı vəziyyəti gərginləşdirmək üçün hər hansı kəskin hərəkətinə inanmıram. Rusiya tankerlərinin artıq avqust ayında kütləvi şəkildə saxlanılması ehtimalı cüzidir. Həm də sabah heç kim senator Lidsi Qremin Rusiyaya qarşı "cəhənnəm sanksiyaları" deyilən qanununu qəbul etməyəcək. Aİ ilə razılaşmalar Trampın əl-qolunu açıb: Avropa ABŞ-dan sonra hərəkətə keçəcək və Çinlə gələcək danışıqlar əksər hallarda Aİ və ABŞ-ın birgə mövqeyini nəzərdə tutur. Xatırladaq ki, Çin üçün ABŞ bazarı qədər Aİ bazarı da önəmlidir", - Denisenko bildirib.

**Üçüncüsünə gəlincə, politoloq yazıb ki, indi iki mümkün ssenari var:** "Birinci ssenari odur ki, Tramp Çinlə danışıqları sürətləndirməyə çalışacaq və mümkün qədər tez bəzi razılaşmalara nail olmağa çalışacaq. Sonra o, həqiqətən də Çinin Yaponiya üzərində qələbəsinin bayram tədbirinə gedə bilər. Hələlik bu seçim o qədər də real görünmür. Baxmayaraq ki, nə Çin, nə də ABŞ ticarət eskalasiyasını və ya daha çox hərbi əməliyyatları istəmir. Belə olan halda, həqiqətən də, ən qısa müddətdə Çin hərbi əməliyyatları dayandırmaq üçün Rusiyaya təzyiq göstərməyə başlayacaq və ABŞ Ukraynanı sərt kompromislərə getməyə məcbur edəcək. Nə cür? Xəyal qura bilərsiniz. Baxmayaraq ki, bütün variantlar artıq məlumdur. İkinci variant - yaxın bir neçə həftə ərzində Tramp ABŞ, Hindistan və Fars körfəzi ölkələri arasında Rusiya neftinin dəyişdirilməsi ilə bağlı hansısa saziş imzalayacaq. Bundan sonra o, Çinlə danışıqlara başlayacaq".

"Hər halda, gözləməyə çox vaxt qalmayıb. Oyun daha çətin olacaq. Mən ancaq təkrar edə bilərəm: dünyanın qaçılmaz ikinci qütbü olan Çinlə münasibətləri düzəltməliyik", - deyə Denisenko fikrini tamamlayıb.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 132 (8742) 31 iyul 2025



# Turistə corabın hörülməsi

Zamin HACI
zaminhaci@gmail.com

**Küçədə corab satan aktyorumuzun əhvalatını hamımız ürək ağrısı ilə izləmişdik. Axı ölkədə sənətkarlara böyük diqqət vardır. Onlar pensiya, fəxri ad, medal, maşın, ev, putyovka, sponsor, həci, məşədi, plastik cərrah, gözdartan, piyəridən, qarınyığan, repetitor, köşə yazarı, rəis və sairə lazımi ünsürlərlə vaxtaşırı təmin edilirlər.**

Haçan efiri açsan, orada divandakı oturacaq başına (bəlkə də, üzr istəyirəm, arxasına) düşən ekspert sayında üstünlüyü əməkdar və xalq artistləri təşkil edir. Bizdəki xalq artisti sayı Yaponiyada maşın istehsalından çoxdur. AYB üzvlərinin sayı ABŞ-ın ümumi daxili məhsulunu milyon dəfə ötüb keçmişdir. Məsələn, Anar müəllim hər il qələyanında 10 ton tütün yandırmaqla dövlət planını artıqlaması ilə doldurur. Lakin mövzudan uzaqlaşmayaq, mövzumuz bu deyildir. Oxucuları da çaşdırmaq olmaz. Necə deyərlər, tələsmə, Zaur.

Bəli, artistin corab satmağı diqqət çəkdi, əslində prosesin videoicmalını izləyərkən onun uğurlu satıcı olmasını mütləq qeyd etməyə borcluyam. Bir nəfərə 2 corabı 10 manata satmışdı, özü də əvvəl etiraf etdi ki, mayası 2 manatdır. Deməli, təmiz 6 manat gəlir əldə olunmuşdu. Heç "Azdrama"da pafosla qışqıran artistlərin qazancı bu qədər olmur.

O cümlədən hörmətli artistimiz corabsatan rolunu istedadla oynayaraq özünə diqqət cəlb etməyi bacarmışdı. Niyə bizdə corab istehsalı yoxdur? Nə üçün pambıq əkinlərinin sahəsi ildən-ilə azalır? İpəkqurdu tədarükü də həmçinin, artıq dəbdən düşmək üzrədir. Yeni aktyor iqtisadi potensialımıza təkan verərək regional inkişaf proqramlarını cari ildə... Nəsə, burada dayanıram, qalanını özünüz fikirləşin.

Həmin günlərdə bizi sevindirən anonslar verildi. Nazir aktyora zəng vurub, onu teatrda işə düzəldiblər, bəlkə corab fabriki açacaq və sairə... Hamımız xəbərin gözəlliyindən ağlaşdıq, bir neçə oxucu başına corab keçirtdi. Lakin indi ortaya başqa mənzərə çıxıb. Aktyor növbəti müsahibəsini verib, deyir məni heç kim işə düzəltməyib, yay tətilidir, bəlkə payızda teatra qatarlar, hesabıma pul köçürülmədi və sairə. Hətta deyir indi mən nə edim, təzədən corab satım?

Qəribədir ki, eyni vaxtda Bakıdakı hoteldə xarici turistin başına corab hörülməsi xəbərini aldıq. Orada bir-iki qısmat kartof-çörək yeyən, mineral su içən adama 1300 manata yaxın hesab nallamışlar (mümkün qədər mədəni yazdım, çünki 5 butulka mineral suya 100 manat almaq nəsə başqa intim münasibətlərin göstəricisidir).

Bu vəziyyətdə turizm, hotelçilik, restoran, xidmət, qeyri-neft sektoru inkişaf edərmi? Etməz.

İnsafən, adını çəkmək istəmədiyim həmin hotellər zənciri bütün dünyada belə anormal qiymətləri ilə tanınır. Necə deyərlər, kim harın kapitalistə xeyir vermək istəyir, buyursun. Dünyanın hər yerində "qazların" məmnuniyyətlə soyurlar. Lakin müqayisə üçün eyni şəbəkənin dünyanın ən baha şəhərlərindən olan Tokiodakı hotelində restoranın menyusuna baxdım. Çin restoranında 11 min yen (bizim pulla 126 manat) ödəməklə "nə qədər istəsən ye" menyusu sifariş etmək mümkün idi. Bakıdakından 10 dəfə ucuz.

Üstəlik, 4 porsiya kartof qızartmasına 48 manat almaq hətta Gədəbəydə də insanda qəzəb oyadar, nəinki Tokio və ya Bakıda.

Yaxud 6 balaca çörəkarası ət parçasına (lap adı "burger" olsun) 252 manat qiymət qoymaq müştərinin bir yerindən tutub burmaq kimi əhvalatdır. Məqsəd yəqin səfəri turist üçün unudulmaz etməkdir. Bunlar corabı hörür, sənətkarlarımız da satır. Amma turist bu tamaşaya cəmi bir dəfə baxır. Bir daha belə yerə gəlməz. Hərçənd çox da lazım idi... Neftin canı sağ olsun. Turist yox idi, səhər açılmırdı?

Ümidvaram turistlər də artistlərə qoşulub hesabı ödəmək üçün corab satacaqlar.



# Aİ Paşinyanın "qələmini qırdı" - yerinə onu gətirirlər

## Brüssel səbrinin tükəndiyini gizlətmir; bəs onu kim əvəz edə bilər? - bir ad çəkilir, amma...

**Brüssel artıq Avropa İttifaqının Ermənistanın baş naziri Nikol Paşinyanla bağlı səbrinin tükəndiyini gizlətmir. Bu günlərdə Avropa Komissiyasının saytında Ermənistanın baş nazirinin ünvanına sərt tənqidlərin yer aldığı məktub dərc olunub. Lakin qısa müddət sonra sənəd çıxarılsa da, onun məzmunu diplomatik kanallar vasitəsilə yayılmağa müvəffəq olub.**

Bu məktuba əsasən, Avropa Komissiyası mahiyyətcə etiraf edir ki, artıq Paşinyanla işləmək mümkün deyil. İddialara görə, Aİ artıq Qərbə yönümlü mötədil müxalifət arasında alternativlər axtarır. Birbaşa olmasa da, Avropa rəsmiləri Ermənistanın hazırkı baş nazirinin "toksit" tərəfdaşa çevrildiyinə açıq şəkildə işarələr verirlər.

Ermənistanın baş naziri uzun müddətdir ki, Avropa İttifaqında avropayönlü islahatların dirijoru kimi qəbul edilir. Bununla belə, bir sıra uğursuzluqlar və sistemli səhvlər onun nüfuzunun üstündən xətt çəkib. İddia olunur ki, Paşinyan ölkə daxilində inamı gücləndirmək əvəzinə, nüfuzlu biznes dairələri və ruhanilərlə açıq qarşıdurmaya girməsi bu qəbildəndir. O cümlədən sülh prosesində ləngimə də bu səhvlər sırasına aiddir. Avropa getdikcə Ermənistanın danışıqları qəsdən gecikdirməsi, Aİ-ni çaşdırması fikrini daha çox səsləndirir.

Aİ-nin infrastrukturun inkişafı və islahatlar üçün ayırdığı 270 milyon avro "istənilən nəticəni verməyib". Qeyri-rəsmi olaraq Brüssel məyusdur ki, vəsaitlər səmərəsiz istifadə edilib və faktiki olaraq bürokratik uğursuzluqlara və korrupsiya sxemlərinə çevrilib.

Bəs əsas sual: Paşinyanı kim əvəz edə bilər? Avropa Komissiyasının dəhlizlərində az tanınan, lakin davamlı olaraq avropayönlü partiyanın lideri Tiqran Xzmalyanın adı getdikcə daha çox səslənir. Parlamentdə heç bir mandatı olmasa da, Avropa fondları, diplomatlar və erməni deputatlarla əlaqələri Xzmalyanı əlverişli namizəd edir.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev** "Yeni Müsavat"a bildirdi ki, Paşinyan Ermənistanı Rusiyanın təsirindən çıxmağa çalışır və 2018-ci ildən bəri bu istiqamətdə sistemli siyasət aparır. Partiya sədri qeyd etdi ki, erməni baş nazir bunu qıcıq **doğurmadan həyata keçirməyə cəhd edir:** "Qərb də Ermənistan hökumətinə siyasi-diplomatik dəstəyi davam etdirir. Bütün verilən proqnozlara baxmayaraq, Paşinyan Rusiyadan uzaqlaşmağa çalışır. O, Azərbaycan rəhbərliyi ilə müəyyən iş də aparır. Ona görə deməzdim ki, Qərb Paşinyandan bezib".

**F.Quliyev açıqladı ki, Rusiya isə bölgədə sabitlik istəmir və münaqişəni uzatmaqla bölgədə qalmağa çalışır:** "Sadəcə, Paşinyan "at gedişi" edir - yəni Altaya səfər və digər addımlarla həssas mərhələlərdən çıxmağa can atır. Beləliklə, Paşinyanı Qərb üçün bezdirici fiqur saymaq olmaz".

**Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) sədr müavini Samir Əsədli isə düşünmür ki, Qərb Paşinyandan imtina edib:** "Söz yox ki, daha yaxşısını arzu edir. Amma elə bu yaxınlarda Brüsselə səfər etmişdi. Avropa hələ də onu Cənubi Qafqazda əsas fiqurlarından biri kimi görür. Sadəcə, regiondakı proseslər Qərbin radikal addımlar atmasına imkan vermir. İkinci məsələ isə Paşinyanın rəqibsiz olmasıdır. Onun hələ də alternativi yoxdur. Ermənistanda müxalifət deyəndə radikal millətçilər, şovinist dairələr ağla gəlir. Onlar isə marginallaşmış qüvvələrdir və xalqın gözündən düşüblər, Rusiyanın agenti kimi qəbul olunurlar. Belə müxalifətə kim dəstək verər ki, Paşinyana rəqib olsun?!"

**VHP rəsmisi hesab edir ki, Ermənistanda müxalifət deyəndə təsəvvürə Rusiyanın adamları gəlir:** "Ona görə də xalqdan dəstək yoxdur. Ölkədə gərək elə bir mötədil qüvvə olsun ki, Paşinyana rəqib görünsün. Hazırda elə bir mütərəqqi təşkilat, yaxud sevilən lider yoxdur. Bu da ondan xəbər verir ki, cəmiyyət seçim edə bilmir. Erməni xalqı ən pisdən daha yaxşı pis olan Paşinyana üstünlük verir. Qərb də bu kontekstdə yanaşır. Avropa Paşinyandan tam razı deyil. Sadəcə, onun yerinə ruspərəstlər gələcək deyə hələ ki davam edirlər. Bir sözlə, Paşinyan manevrlər etsə də, Azərbaycan üçün ən uyğun ermənidir. Onunla bu prosesi sona çatdırmaq lazımdır. Tarixdə belə erməni siyasətçi olmayıb. Onun davranışları ziddiyyətli olsa da, regiondakı problemləri həll etmək üçün Paşinyanla Qərb də, biz də işləməliyik. Çünki onu daha yaxşısı əvəz etməyəcək".

Xatırladaq ki, Amerika Beynəlxalq Respublikaçılar İnstitutunun (IRI) iyunun 16-dan 25-dək keçirdiyi sorğunun nəticələrinə görə, Ermənistan əhalisinin, demək olar, yarısı - 49 faizi əmindir ki, ölkə yanlış istiqamətdə gedir. Ermənilərin yalnız 36 faizi ölkənin inkişafının düzgün istiqamətdə getdiyinə inanır. Yaşlı insanlar Ermənistandakı vəziyyətə daha nikbin yanaşır. Yaşı 56-dan yuxarı olan respondentlərin 43 faizi Ermənistanın düzgün istiqamətdə getdiyinə əmindir və pensiyaçılar arasında bu göstərici daha yüksəkdir - 47 faiz.

Bunun əksinə olaraq, 18-35 yaş arası ermənilərin 54 faizi, ortayaşlı vətəndaşların isə 52 faizi ölkənin inkişafının düzgün istiqamətdə getmədiyinə inanır. Siyasətçilərə gəlincə, baş nazir Nikol Paşinyan ən yüksək reytinqə malikdir - 13 faiz. Əvvəlki sorğu ilə müqayisədə Paşinyanın reytinqi üç faiz azalıb. 2024-cü ildə ermənilərin 16 faizi ona güvənib. Ermənilərin böyük əksəriyyəti isə heç bir siyasi fiqura və ya partiyaya etibar etmir.

Respondentlərin 61 faizi heç bir siyasi xadimə güvənmədiyini deyib. Ölkədə fəaliyyət göstərən qurumlara etimada gəlincə, ordu və kilsə ön sıralardadır. Əhalinin 72 faizi silahlı qüvvələrə tam və ya qismən, 58 faizi isə Erməni Apostol kilsəsinə etibar edir. Yeri gəlmişkən, əvvəlki sorğu ilə müqayisədə kilsənin reytinqi 10 faiz artıb. Sorğu həmçinin Ermənistanın Aİ-yə üzvlük perspektivlərinə də toxunaraq bu məsələ ilə bağlı referendumun təyin olunacağı təqdirdə sadə vətəndaşların necə səs verəcəyini öyrənib. Sorğunun nəticələrinə görə, ermənilərin 49 faizi Aİ üzvlüyünə, 15 faizi isə əleyhinə səs verərdi. Digər 31 faiz isə səsvermədə, ümumiyyətlə, iştirak etməyəcəyini bildirib.

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 132 (8742) 31 iyul 2025

# Azərbaycan qazı Ukraynaya çatmamış Rusiyada "partlayış"

## Moskvanın şovinist siyasətçiləri və "Z-blogerlər" Bakıya qarşı yeni hədəyə başlayıb - rəylər

**Ukraynanın "Naftoqaz Ukraini" milli səhmdar cəmiyyəti ilə Azərbaycanın SOCAR şirkəti arasında qaz alqı-satqısına dair müqavilənin imzalanmasından sonra ilk dəfə mavi yanacağın nəqli Rusiyada aqressiv reaksiya doğurub. Bu qaz nəqli Trans-Balkan dəhlizi ilə həyata keçiriləcək.**

"Yeni Müsavat" yada salır ki, Prezident İlham Əliyevin ukraynalı jurnalistin sualına cavab olaraq "işğalla barışmayın" söyləməsi də Rusiyada ciddi narazılıq doğurmuşdu, indi qaz nəqli bu cür şovinist tiplərin "çörəyinə yağ sürtür", onlar Kremlin xoşuna gəlmək üçün Azərbaycana kin-nifrət açıqlamaları ilə sanki yarışa giriblər.

"Azərbaycan qazının Ukraynaya tədarükünə başlamaq qərarı açıq şəkildə Moskva ilə müharibə aparan Kiyevə dəstək məqsədi daşıyır", - Dövlət Dumasının MDB işləri üzrə komitəsi sədrinin birinci müavini Konstantin Zatulin Lenta.ru-ya belə deyib. "Mənə elə gəlir ki, hətta ən karlar və korlar belə Azərbaycanın bir müddətdir ki, öz xətti ilə getdiyini və bir sıra hallarda Rusiyanın maraqlarına düşmən olduğunu hiss etməyə başlayıblar. Bu, Bakının öz münasibətini nümayiş etdirmək üçün səbəblər və fürsətlər axtardığını bir daha təsdiqləyir", - Zatulin bildirib.

Deputat qeyd edib ki, Azərbaycanda belə addımları çoxvektorlu siyasət adlandırmaq olar. "Bununla belə, son vaxtlar Rusiyanın siyasətinə perpendikulyar olan vektorlar getdikcə güclənir və nümayiş etdirilir", - o əlavə edib. Anti-Azərbaycan mövqeyinin davam etdirən siyasətçi iddia edib ki, İranda müharibə olanda guya Azərbaycan tərəfi Buşəhrdəki AES-in işçilərinin ailələrinin, rusiyalı mütəxəssislərin Astara buraxılış məntəqəsindən çıxarılmasından imtina edib.

Rusiyanın şovinist siyasətçiləri, Kremlin nəzarətindəki jurnalistlər və "Z-blogerlər" də qaz nəqlindən Azərbaycana qarşı hücum üçün növbəti bəhanə hesab edirlər. Onların "məntiqinə" görə Azərbaycan Ukraynaya qaz nəql etməklə guya Rusiya əleyhinə siyasətini gücləndirmiş olub.

Azərbaycan qazının Ukraynaya nəqli Qərb ölkələrinin də maraqlarına cavab verir. Azərbaycan Ukraynaya qaz nəql etməklə ABŞ və Avropa ölkələrinin Ukraynanın Rusiya qarşısında məğlub olmamaq siyasətində praktik addımı ilə yer almış olub. Bu, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunun artmasına, eyni zamanda ABŞ və Avropada "Qarabağ ermənilərinə dəstək" adıyla ölkəmiz əleyhinə müxtəlif sənədlər qəbul etməyə çalışan siyasi dairələrin təxribatçı fəaliyyətlərinin qarşısının alınmasına xidmət etməlidir.

"Azərbaycan qazının Ukraynaya çatdırılması yaxşı və düzgün təşəbbüsdür". Bu fikri AZƏRTAC-a Ukrayna Ali Radasının Energetika və kommunal xidmətlər məsələləri komitəsinin üzvü, Enerji qənaəti və enerji səmərəliliyi alt komitəsinin sədri, deputat Sergey Naqornyak söyləyib.

Onun sözlərinə görə, bu addım Ukraynaya qaz defisitini azaltmağa kömək edəcək. Deputat Ukraynanın enerji təhlükəsizliyinə Azərbaycanın verdiyi töhfənin çox qiymətli olduğunu vurğulayıb. Rəsmi Kreml reaksiya verməyib, amma mövqe indidən də bəllidir.

Lakin Rusiya onu da qiymətləndirməlidir ki, Azərbaycan koalisiyaya qoşulmayıb, sanksiyalarda iştirak etmir. Ukraynaya qaz nəqli isə həm iqtisadi maraqlarımıza uyğundur, həm də işğala məruz qalan xalqın enerji təminatında ciddi köməklikdir. Üstəgəl, müharibənin azı 3 ilində Rusiya qazı Ukrayna üzərindən hələ də nəql edilirdi və Kurskun Sudja bölgəsindən keçirdi.




Bu mövzuda **politoloq Elxan Şahinoğlunun** fikirləri də maraqlıdır. Onun sözlərinə görə, Rusiyanın şovinist siyasətçiləri, Kremlin nəzarətindəki jurnalistlər və "Z-blogerlər" Azərbaycana qarşı yeni mövzu tapıblar. "Bunların "məntiqinə" görə Azərbaycan Ukraynaya qaz nəql etməklə guya Rusiya əleyhinə siyasətini gücləndirmiş olub. Bunu elə yazırlar ki, sanki Azərbaycanla münasibətlərin pozulmasında raketlə vurulan təyyarə olayı olmayıb, o cümlədən soydaşlarımız Rusiya şəhərlərində zorakılığa məruz qalmayıblar. Kreml müharibə başlayandan Ukrayna ərazilərini işğal etməklə yanaşı, ukraynalıların qış aylarında donmasını, qazsız və elektriksiz qalmasını istəyir. Kreml 2008-ci ildə Gürcüstana qarşı müharibəyə başlayanda bu ölkəyə qarşı da eynisini arzulayırdı. Azərbaycan Gürcüstanın donmasına imkan vermədi, qonşumuzu neft və qazla təmin etdik. Tərəfdaşı ağır durumdan qurtarmaq lazım idi", - deyə analitik Gürcüstanın işğal olunduğu dönəmi və Bakının yardımını xatırladıb.

**Onun sözlərinə görə, əlbəttə, Ukraynaya qazın nəqli məsələsində gəlir də düşünülüb, ancaq Gürcüstanın timsalında olduğu kimi, Ukraynanın ayaqda qalması da bizim üçün vacibdir:** "Prezident İlham Əliyev ukraynalılara "işğalla barışmayın" mesajını göndərdikdən sonra Kiyevin "bizə qaz lazımdır" xahişini müsbət cavablandırıb. Çinin xarici işlər naziri Van Yi Brüsselə səfəri zamanı Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə nümayəndəsi Kaya Kallasa "biz Ukrayna ilə müharibədə Rusiyanın məğlubiyyətini istəmirik, çünki əksi olarsa, ABŞ diqqətini Çinə yönəldəcək" demişdi. Azərbaycan isə əksinə, Ukraynanın müharibədə məğlub olmasını istəmir, çünki əksi olarsa, Kreml "diqqətini" başqa ölkələrə, o cümlədən Azərbaycana yönəldəcək".

**Siyasi ekspert Ramiyə Məmmədova** Azərbaycanın müharibədən iki gün əvvəl Rusiya ilə strateji müttəfiqliyə dair bəyannamə imzaladığını yada salaraq, rəsmi Bakının münasibətlərdə dürüst olduğunu düşünür. Onun qəzetimizə bildirdiyinə görə, bu gün də Ukraynaya qaz nəqlində Azərbaycan Rusiya əleyhinə iş aparmayıb: "Rusiya özü də dünənə qədər Ukraynaya qaz nəql edirdi. Yəni şəhərləri bombalayırdı, həm də enerji ilə təchiz edirdi. Burada siyasi elementlərlə bərabər iqtisadi dividentləri qabartmağın tərəfdarıyam. Zatulin onsuz da bizə qarşı danışmaq üçün nəsə tapmağa hazırdır. İndi də əlinə fürsət düşüb ki, Ukraynaya qaz verilməsi ilə ittiham etsin".

**Təhlilçi hesab edir ki, Azərbaycanın enerji məhsulları dünya bazarına çıxıb, Avropaya, İsrailə, qardaş Türkiyəyə, Gürcüstana, Balkan ölkələrinə satılır, əməkdaşlıq əlaqələri genişlənir:** "Elə dövlətlər var ki, bu gün də əlaqələri yaxşı deyil, amma Azərbaycan öz siyasətini yürüdür, onlara neft-qazını satır. Ona görə də Ukrayna məsələsində rusiyalı siyasətçilər və onların media nümayəndələri qabaqdangəlmişlik edirlər. Görünür, Rusiya öz qazının Azərbaycan üzərindən satılmasını istərdi. Bizim Kremlə görə sanksiya altına düşmək fikrimiz yoxdur. Sadəcə, Moskva nəzərə almalıdır ki, Şimal-Cənub dəhlizi var və Azərbaycan burada da Rusiya iqtisadiyyatının nəfəs alması üçün önəmli tranzitdir. Həmçinin Zəngəzur dəhlizi perspektivi mövcuddur. Kreml bacarırsa, İrəvana təzyiq etsin və koridorun onun nəzarəti altında açılmasına nail olsun ki, Rusiya buradan iqtisadi fayda əldə edə bilsin. Bir sözlə, Azərbaycan Ukrayna böhranı kontekstində şəffaf siyasət yürüdür, Ermənistan kimi oyunbazlıq etmir".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

## Norveç şirkəti Azərbaycanı tərk edir

**Norveçin Equinor ("Equinor Azerbaijan Karabagh BV") şirkətinin Azərbaycandakı filialı ləğv olunduğunu elan edib.**

Bu barədə iqtisadiyyat.az şirkətə istinadən xəbər verir.

Qeyd edilib ki, kreditorlar iki ay ərzində tələblərini paytaxtın Nəsimi rayonu, Üzeyir Hacıbəyov küçəsi, ev 62, Marine Plaza 16-cı mərtəbə ünvanına bildirə bilərlər.

Qeyd edək ki, "Equinor" şirkəti Azərbaycanda 2018-ci ildə dövlət qeydiyyatına alınıb. Xəzərin Azərbaycan sektorunda neft quyusu qazması sahəsində fəaliyyət göstərib. Qanuni təmsilçisi Marina Serquşevadır.

## Rusiya ölkəmizdən bu məhsulları almaq istəmir

**SİBUR şirkəti və onun struktur bölmələri olan "Kazanorqsintez" və "Nijnekamskneftexim" Azərbaycan və Türkmənistandan polietilen və polipropilen məhsulları idxal edən istehsalçılara qarşı antidempinq araşdırmasına başlayıb.**

Bu barədə "Kommersant" nəşri məlumat yayıb. Avrasiya İqtisadi Komissiyasının təqdim etdiyi sənədlərə əsasən, 2024-cü ildə xarici tədarükçülərin məhsulları Rusiya daxili bazarında maya dəyərindən aşağı qiymətə satılıb.

Araşdırma nəticələrinə görə, Azərbaycandan idxal olunan:
- polietilen üzrə dempinq marjası 19,9%,
- polipropilen üzrə isə 33,85% təşkil edib.

Türkmənistandan idxal edilən polipropilen və onun sopolimerləri üzrə dempinq marjası 13,55% olub.

Qeyd edilir ki, bu cür tədarüklər Rusiyanın neft-kimya sənayesinə maddi zərər vurma riski daşıyır. Araşdırmanın yekununda əlavə rüsumların və kvotaların tətbiqi, hətta idxala tam qadağa qoyulması barədə qərarın verilməsi istisna edilmir.

## Sloveniyanın Bakı ilə enerji əməkdaşlığı genişlənir

**Azərbaycan və Sloveniyanın energetika nazirlikləri arasında imzalanmış Anlaşma Memorandumunun müddəaları enerji sahəsində əsasən beş mühüm istiqamət üzrə tərəfdaşlığın gücləndirilməsi və təcrübə mübadiləsinə yönəlib.**

Memorandumun əsas vəzifəsi Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Sloveniyanın "Geoplin" şirkəti arasında təbii qazın fasiləsiz ticarətini təmin etmək və strateji tərəfdaşlığı formalaşdırmaq məqsədilə sıx əməkdaşlığı təşviq etməkdir.

Bundan başqa, sənəd enerji təhlükəsizliyinin gücləndirilməsini və Avropaya qaz təchizatı marşrutlarının şaxələndirilməsini ehtiva edir. Əməkdaşlığın prioritetlərindən biri bərpa olunan enerji mənbələrinin və hidrogen enerjisi də daxil olmaqla, digər təmiz texnologiyaların inkişafı, həmçinin enerji sistemlərinin rəqəmsallaşdırılması sahəsində bilik və təcrübə mübadiləsinin dəstəklənməsidir.

YENİ MÜSAVAT
N 132 (8742) 31 iyul 2025

# Azərbaycanda kazino oyunları leqallaşdı

## Yaxın 6 ayda hökumət kazinoların hüquqi və texniki fəaliyyət qaydalarını müəyyən edəcək



**Xəzər dənizinin (gölünün) Azərbaycana mənsub olan bölməsində süni torpaq sahələrində kazino oyunları təşkil ediləcək. Prezident İlham Əliyev bununla bağlı Mülki, Cinayət, İnzibati Xətalar Məcəllələrinə, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Dövlət rüsumu haqqında”, “Reklam haqqında”, “Lisenziyalar və icazələr haqqında”, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Xəzər dənizinin (gölünün)Azərbaycana mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” qanunlara dəyişiklikləri təsdiqləyib.**

Nazirlər Kabinetinə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, kazino oyunlarının təşkili və keçirilməsi ilə bağlı normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək tapşırılıb. Qeyd edək ki, 2024-cü il mayın 7-də “Xəzər dənizinin (gölünün) Azərbaycana mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Qanun qəbul edilib. Tikinti məqsədləri üçün süni torpaq sahələrinin yaradılması ilə bağlı ictimai münasibətləri tənzimləyən həmin qanun süni torpaq sahələrinin yaradılmasının təşkilati və hüquqi əsaslarını və süni torpaq sahələrindən istifadənin, o cümlədən süni torpaq sahələrində tikinti aparılmasının xüsusiyyətlərini müəyyən edib. Qanun süni torpaq sahələrində sahibkarlıq fəaliyyətinin tənzimlənməsini, o cümlədən süni torpaq sahələrində kazino oyunlarının keçirilməsinin hüquqi və təşkilati əsaslarının müəyyən edilməsini nəzərdə tutur.

**“Bakı” Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov** “Yeni Müsavat”a deyib ki, bu dəyişikliklər kifayət qədər genişmiqyaslıdır və yaxın illərdə Azərbaycanda yeni iqtisadi, hüquqi və sosial reallıqlar yarada bilər: “Qanunun qüvvəyə minməsi ilə Azərbaycanda, konkret olaraq Xəzərin Azərbaycana aid hissəsində süni yaradılan torpaq sahələrində kazino oyunları leqal status alır. Bu, postsovet məkanında Rusiya, Qazaxıstan, Gürcüstan nümunələrində olduğu kimi xüsusi zonalarda kazinoların fəaliyyətinə icazə verilməsi modelinə oxşar yanaşmadır”.

**Natiq Ələsgərov Mülki, Cinayət və İnzibati Xətalar məcəllələrinə dəyişikliklərə də toxunub. Deyib ki, bu dəyişikliklər o deməkdir ki, həm oyun qaydaları, həm də qaydaların pozulmasına görə konkret məsuliyyət müəyyən ediləcək:** “Məsələn, cinayət yolu ilə əldə edilmiş pulların leqallaşdırılmasına qarşı mübarizə ilə bağlı qanunlara dəyişikliklər kazino biznesinin maliyyə şəffaflığı üçün əsas olacaq. Nazirlər Kabineti 6 ay müddətində beynəlxalq təcrübəyə uyğun normativ aktlar hazırlayacaq. Yəni yaxın 6 ayda hökumət kazinoların hüquqi və texniki fəaliyyət qaydalarını müəyyən edəcək. Süni adalarda bu obyektlərin tikintisi üçün investorlar cəlb ediləcək. Ehtimal ki, beynəlxalq operatorlarla əməkdaşlıq ediləcək. Lisenziyalar və rüsumlar xüsusi qaydada tənzimlənəcək, böyük ehtimalla yüksək vergi tətbiq olunacaq. Bu, oyunların təşkili, iştirakçıların hüquqları, operatorların lisenziyalaşdırılması və vergi mexanizmləri kimi məsələləri əhatə edəcək”.

**Natiq Ələsgərov hesab edir ki, bu qərar Azərbaycanın turizm potensialını artırmaq məqsədi daşıyır:** “Qonşu Gürcüstanın Batumi nümunəsi göstərir ki, kazinolar xarici turistlərin axınını gücləndirə bilər. Xəzərdə süni torpaq sahələrinin yaradılması həm də yeni hotellər, əyləncə və istirahət mərkəzləri üçün geniş imkanlar deməkdir. 2000-ci illərin ortalarında Gürcüstan hökuməti Batuminin inkişafı üçün xüsusi qumar zonası konsepsiyasını qəbul etdi. Bu konsepsiyaya uyğun qumar oyunlarına icazə verildi və Batumiyə həm qonşu ölkələrdən, həm də Avropadan turist axını artdı. Kazinolar yalnız oyun zalı deyil, hotel, restoran, əyləncə mərkəzləri ilə birlikdə inkişaf etdi. Gürcüstan qumar biznesindən yüksək lisenziya rüsumları və vergilər hesabına büdcəsini gücləndirdi. Batumi bir neçə ilə bölgənin ən məşhur turizm və əyləncə məkanlarından birinə çevrildi. Xəzərin süni adalarında yaradılacaq kazinolar turistlər üçün yeni cazibə zonası olacaq. Xüsusilə qonşu ölkələr - Rusiya, İran, Orta Asiyadan varlı turistlərin ölkəyə gəlməsi yüksək investisiya axınını təmin edəcək. Belə layihələrdə beynəlxalq kazino operatorlarının iştirakı gözlənilir. Hotelçilik, xidmət və əyləncə sektorunda minlərlə yeni iş yeri açılacaq”.

**Hüquqşünasa görə, kazino biznesinin riskləri də var:** “Batumi modeli göstərdi ki, qumar biznesi ilə bərabər ludopatiya (qumar asılılığı), ailə büdcələrinin dağılması və kriminal hallar kimi problemləri də artırır. Azərbaycan bu riskləri nəzərə almalı, sərt lisenziyalaşdırma və oyun qaydaları tətbiq etməli, qumar zallarına yerli vətəndaşların girişini məhdudlaşdırmaq barədə düşünməlidir. Məsələn, Gürcüstan və Qazaxıstanda bu praktikadan istifadə olunur. Əgər beynəlxalq təcrübə düzgün tətbiq edilsə, Xəzərdə yaradılacaq kazino zonası Azərbaycan iqtisadiyyatına əlavə milyardlarla dollar qazandıra bilər. Bu, həm də ölkəni regional əyləncə və turizm mərkəzinə çevirə bilər. Amma bu iş yalnız maliyyə yox, həm də sosial məsuliyyətlə aparılmalıdır. Əks halda, Batumi uğuru yerinə yeni sosial problemlər dalğası yarana bilər”.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# Xaricə üzərlik aparanlar bu səbəbdən saxlanılır - rəsmi

## Üzərlik bu ölkələrdə narkotik hesab olunurmuş

**Son zamanlar bəzi ölkələrin hüquq-mühafizə orqanları tərəfindən üzərlik (Peganum harmala) bitkisi ilə sərhədi keçməyə cəhd edən şəxslərin saxlanılması halları artmaqdadır. Nəticədə həmin şəxslər barəsində inzibati və ya cinayət məsuliyyəti tədbirləri görülür.**



Bu barədə Ədliyyə Nazirliyi məlumat yayıb.

Bildirilir ki, üzərlik bitkisi xalq təbabətində və mədəni-ritual ənənələrdə geniş istifadə olunsa da, onun tərkibindəki bəzi alkaloid maddələr - xüsusilə psixotrop təsirə malik olan harmalin, harmin və digər birləşmələr - bir sıra ölkələrdə dövriyyəsi məhdudlaşdırılan və ya tam qadağan olunmuş maddələr siyahısına daxildir.

Bununla əlaqədar olaraq, xarici ölkələrə səfər edən, eləcə də həmin ölkələrdən respublikamıza gələn vətəndaşlara üzərlik bitkisini, toxumlarını, ekstraktlarını və ya digər formalarını üzərlərində daşımamaq tövsiyə olunur. Bu, həmin ölkələrin qanunvericiliyində nəzərdə tutulan hüquqi məsuliyyət risklərindən yayınmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi tərəfindən üzərlik bitkisinin mənşəyi, kimyəvi tərkibi, hüquqi statusu və məsuliyyət doğuran halları ilə bağlı profilaktik tövsiyə hazırlanıb. Tövsiyənin hazırlanmasında məqsəd vətəndaşların təhlükəsizliyini təmin etmək, üzərlik bitkisi ilə xarici ölkələrə səfər edərkən, eləcə də həmin ölkələrdən respublikamıza gələrkən hüquqi məsuliyyət doğura biləcək halların qarşısını almaq üçün ictimai maarifləndirmə aparmaqdır.

Modern.az bu barədə araşdırma aparıb.

Üzərlik bitkisi bir sıra ölkələrdə dövriyyəsi məhdudlaşdırılan və ya tam qadağan edilmiş maddələr siyahısına daxildir.

Fransa - 2005-ci ildən üzərlik və onun tərkib maddələrinin satışı və saxlanması tamamilə qadağan edilib;

Kanada - bitkinin tərkibindəki alkaloidlər “Schedule III” maddələr siyahısına daxildir, bu səbəbdən satış və daşıma cinayət məsuliyyəti daşıyır;

Avstraliya - harmalin və harin alkaloidləri yalnız elmi araşdırma məqsədilə istifadə oluna bilər;

ABŞ-ın bəzi ştatları - Luiziana ştatında üzərlik və toxumları qadağandır, Arizona, Nevada, OreQon kimi ştatlarda isə bitki “invaziv alaq” kimi qeydə alınıb və məhdudiyyətlər tətbiq olunur;

Finlandiya - tibbi məqsədlə istifadə üçün həkim resepti tələb olunur;

Rusiya - 2024-cü ilin əvvəlində “Peganum harmala” rəsmi olaraq psixotrop tərkibli bitkilər siyahısına salınıb və dövlət nəzarətinə götürülüb.

Bəzi ölkələrdə gömrük və sərhəd xidməti tərəfindən üzərlik toxumu və qurudulmuş formaları ilə səyahət edən şəxslərin saxlanıldığı barədə məlumatlar yayılıb. Səlahiyyətli qurumlar bu bitkinin bəzi hallarda psixotrop təsirli maddə kimi istifadə olunduğunu əsas gətirərək, hüquqi tədbirlərə əl atırlar.

Hərçənd ki, üzərlik bir çox Şərq ölkələrində ənənəvi təmizləyici və qoruyucu vasitə kimi tanınır, Qərb ölkələrində bu bitkiyə münasibət daha sərtdir. Xüsusilə də onun tərkibindəki bəzi maddələrin halusinogen qarışıqlarda istifadə olunması hüquq-mühafizə orqanlarının diqqət mərkəzindədir.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 132 (8742) 31 iyul 2025

# Azərbaycanlıların ucuz bazarı hədəfdə

## Avropa Komissiyası ekspertlərinin fikrincə, "Temu" qeyri-qanuni məhsulların yayılması risklərini azaltmaq sahəsində əsas öhdəliyini yerinə yetirmir




**Avropa İttifaqında istehlakçıların keyfiyyətsiz və zərərli məhsullardan qorunması istiqamətində daha bir mühüm addım atılıb. Belə ki, Avropa İttifaqı (Aİ) Çinin elektron ticarət şirkəti "Temu"nu qanunsuz məhsullar ilə lazımi səviyyədə mübarizə aparmamaqda ittiham edib. Avropa Komissiyası Çinə məxsus "PDD Holdings" tərəfindən idarə olunan və endirimli məhsullar satan "Temu" platforması ilə bağlı apardığı araşdırmanın ilkin nəticələrini açıqlayıb. Araşdırma göstərib ki, bu platforma Aİ-nin Rəqəmsal Xidmətlər Aktını pozur.**

AK-ın yaydığı açıqlamada qeyd olunub ki, "Temu"nun Avropa Birliyi qaydalarına uyğun olaraq qeyri-qanuni məhsulların yayılması ilə bağlı riskləri qiymətləndirmək öhdəliyini pozduğu aşkar edilib: "Dəlillər göstərir ki, Avropa Birliyində istehlakçıların platformada qeyri-qanuni məhsullarla qarşılaşmaları riski yüksəkdir". Xüsusilə burada söhbət qeyri-qanuni və ya təhlükəli malların satışına zəif nəzarətdən gedir. Avropa Komissiyasının ilkin rəyinə əsasən, Aİ alıcıları üçün yüksək risk var. Onlar müəyyən edilmiş standartlara cavab verməyən məhsullara rast gələ bilərlər. "Gizli alış-veriş" adlanan prosedur zamanı qanun pozuntuları müəyyən edilib. Ümumi pozuntular bunlardır: uyğun olmayan uşaq oyuncaqları (uşaqlar üçün təhlükəli materialdan hazırlanma, yanlış etiketləmə və s.), ucuz elektronika.

Avropa Komissiyasının fikrincə, "Temu" qeyri-qanuni məhsulların yayılması risklərini düzgün qiymətləndirmək və azaltmaq sahəsində əsas öhdəliyini yerinə yetirmir. Və bu, DSA-nın birbaşa pozulmasıdır.

Qeyri-qanuni malların satışı ilə yanaşı, "Temu" tərəfindən digər mümkün pozuntular da nəzərdən keçirilir. Xüsusilə Avropa Komissiyası platformanın istifadəçilərin asılılığına səbəb olan "məşğulluq" mexanikasından istifadə edib-etmədiyini araşdırır.

"Temu" ilk dəfə deyil ki, tənqid olunur. Hələ 2024-cü ilin oktyabrında komissiya platformanın qeyri-qanuni mallarla mübarizə üçün kifayət qədər iş görüb-görmədiyi ilə bağlı araşdırmaya başlayıb. O zaman məsələ bloklanan satıcıların müxtəlif adlar altında asanlıqla geri qayıtması idi. 2024-cü ilin noyabrında İstehlakçıların Hüquqlarının Müdafiəsi Şəbəkəsi (CPC-Netz) "Temu"nu Avropa qaydalarını pozmaqda ittiham etdi. Bura həmçinin saxta endirimlər; saxta rəylər; alınan malların qaytarılması və istehlakçıların hüquqi müdafiəsi haqqında çaşdırıcı məlumatlar daxildir. Saytda əlaqə məlumatlarının tapılmasının çətin olduğu da qeyd olunub. Mal qıtlığı və süni təcililik hissi var.

İttihamlar təsdiqlənərsə, "Temu" qlobal dövriyyəsinin 6 faizi qədər cərimələnə bilər. Avropa Komissiyasının vitse-prezidenti Henna Virkkunen bildirib ki, "istehlakçıların onlayn təhlükəsizliyi Aİ-də müzakirə edilə bilməz".

Aİ-nin texnologiya tələblərinə əsasən, Avropada fəaliyyət göstərən böyük şirkətlər və rəqəmsal platformalar ciddi qaydalara əməl etməlidir. Aİ qaydaları pozan rəqəmsal platformalara böyük cərimələr tətbiq edə bilər. Təkrar pozuntular halında Aİ-də sözügedən rəqəmsal platformaların fəaliyyətinə xitam da verilə bilər.

AK-ın bu addımı atmasının arxasında son illərdə Aİ ərazisində onlayn mal ticarətinin sürətli artımı dayanır. Belə ki, avropalılar, o cümlədən Almaniya vətəndaşları getdikcə daha çox onlayn mal sifariş edirlər. Aİ sakinlərinin 70 faizindən çoxu onlayn alış-veriş edir. İnsanlar ucuz variantlara üstünlük verirlər. O cümlədən uzaq ölkələrdən. Aİ-nin rəqəmsal texnologiyalar üzrə komissarı Henna Virkkunen qeyd edir ki, hər gün Avropa İttifaqına 12 milyon beynəlxalq bağlama gəlir. Bir il ərzində bu axın iki dəfə artıb. Lakin bir çox malların təhlükəli olduğu ortaya çıxıb. Onlar təhlükəsizlik, sağlamlıq, ətraf mühitin mühafizəsi sahələrində Aİ standartlarına cavab vermir.

Avropa İstehlakçı Təşkilatından (BEUC) Silvia Maurerin sözlərinə görə, aşağıdakılar xüsusilə narahatlıq doğurur: uşaq oyuncaqları və zərərli kimyəvi maddələr olan kosmetika; yanğına və ya elektrik şokuna səbəb ola bilən elektrik cihazları; işləməyən tüstü detektorları; asanlıqla qırılan və sürücüləri qorumayan motosiklet dəbilqələri. Ötən ilin ikinci yarısında başlanan müzakirələrdən sonra bütün bu malların əsas satıcıları qismində Çinə məxsus "Temu" və "Şeyn" platformaları şübhə altına alınıb. Aİ tərəfindən Şeynə qarşı təhqiqat başladılıb. Eyni proses "Temu" ilə bağlı da start götürüb.

Aİ Komissiyası həmçinin gömrük qaydalarında islahatlar aparmaq istəyir. Keçən il Aİ-yə dəyəri 150 avrodan az olan 4,5 milyard kiçik bağlama daxil olub ki, bu da 2023-cü il hədəfindən iki dəfə çoxdur. Komissar Maroş Sefçoviçin sözlərinə görə, satıcılar rüsumlardan qaçmaq üçün tez-tez sifarişləri daha kiçik hissələrə bölürlər: Bu, gömrük xidmətlərini həddən artıq yükləyir, tələblərə cavab verməyən malların Avropaya maneəsiz daxil olmasına imkan verir.

Aİ Komissiyası təhlükəli malların monitorinqini maliyyələşdirmək üçün kiçik bağlamaların göndərilməsinə rüsum tətbiq etməyi planlaşdırır. Qərar Aİ Şurası və Avropa Parlamenti tərəfindən təsdiqlənməlidir. Rüsumun müştərilərə təsiri hələlik bəlli deyil. Çin bazarları əlavə xərcləri müştərilərə ötürə bilər. Bununla belə, səlahiyyətlilər bunun Avropaya daxil olan malların təhlükəsizliyini yaxşılaşdırmağa kömək edəcəyinə inanırlar.

Azərbaycanda da xarici platformalardan onlayn ticarət ildən-ilə genişlənir. Son illərdə daxili bazardakı inhisarçıların tələbi ilə xaricdən alınaraq ölkəyə rüsumsuz idxal olunan malların ümumi dəyəri 1000 dollardan 300 dollara qədər azaldılıb. Lakin bu da ölkə əhalisinin xarici platformalardan ticarətə marağını azalda bilməyib.

Azərbaycan Mərkəzi Bankının statistikasına əsasən, 2023-cü il ərzində Azərbaycanda ölkədaxili elektron ticarət əməliyyatlarının həcmi 39 milyard 171 milyon manat, ölkəxarici elektron ticarət əməliyyatlarının həcmi isə 1 milyard 946 milyon manat olub. Əvvəlki illə müqayisədə ölkədaxili elektron ticarət əməliyyatlarının həcmi 2.1 dəfə və ya 20 milyard 655 milyon manat, ölkəxarici elektron ticarət əməliyyatlarının həcmi isə 16.7 faiz və ya 278 milyon manat artıb.

2024-cü il ərzində elektron ticarət əməliyyatlarının sayı 2023-cü illə müqayisədə 83 faiz artaraq 1 milyard 3.4 milyon ədəd, həcmi isə 70 faiz artaraq 66,5 milyard manat olub.

Hazırda Azərbaycanda ən populyar iki platformadır: "Temu" və "Trendyol". 2024-cü il il ərzində "Trendyol" Azərbaycana 20 milyondan çox məhsul göndərib. Şirkətin yaydığı açıqlamaya əsasən, müştərilərin ən çox sifariş etdiyi məhsullar qadın geyimləri, idman ayaqqabısı, kosmetika və dəriyə qulluq vasitələri və ev və mətbəx əşyaları olub. 2025-ci ilin əvvəlində "Trendyol"un Azərbaycanda 2 milyondan çox müştərisi olub.

"Temu" ilə bağlı hər hansı statistika açıqlanmasa da onun çatdırılmanı pulsuz etməsi, Türkiyədəki yüksək inflyasiya səbəbi ilə təklif etdiyi malların qiyməti bahalaşan "Trendyol"la müqayisədə son vaxtlar daha sürətlə populyarlaşması diqqəti cəlb edir. Maraqlıdır ki, bu artım həm də platformanın fəaliyyətindən narazılıqların artımı ilə müşayiət olunur. Sosial şəbəkələrdə "Temu"dan sifariş etdiyi malın əvəzinə başqasının göndərilməsi, göndərilənlərin keyfiyyətinin pis olması, yaxud sifariş olunan ölçülərə uyğun olmaması və sair mövzuda şikayətlər durmadan çoxalır.

Maraqlıdır ki, "Temu"dan narazılıq yalnız Aİ və Azərbaycanda deyil, qardaş Türkiyədə də kəskin artıb. Buna görə də bu ilin mayında "Temu" platformasının rəsmiləri Türkiyə Ticarət Nazirliyinə dəvət olunub. Onlara Ticarət Nazirliyi tərəfindən "Temu"ya "Bazara Nəzarət və Məsafədən Rabitə Vasitələri ilə Bazara Çıxarılan Məhsullara Nəzarət Qaydası"na uyğun olaraq məhsul təhlükəsizliyi və istehlakçı şikayətlərinə dair məsuliyyətləri bir daha xatırladılıb. Qeyd edilib ki, 1 aprel 2024-cü ildən qüvvəyə minmiş yeni tənzimləməyə əsasən, "Temu" platforması qanunvericiliyə uyğun addımlar atmalı və müvafiq öhdəlikləri yerinə yetirməlidir. Nazirlik "Temu" rəsmilərinə satış elanlarında təqdim olunan məlumatların tamlığı, təhlükəli və uyğun olmayan məhsulların platformadan 24 saat ərzində çıxarılması və məhsul təhlükəsizliyi üzrə əlaqə nöqtəsinin daim aktiv saxlanılmasının vacibliyini vurğulayıb. Eyni zamanda bildirilib ki, Türkiyədə təsərrüfat operatorunun xəbəri olmadan məhsulların bazara çıxarılmasına icazə verilməyəcək.

"Temu" rəsmiləri isə tələblərə cavab vermək üçün lazımi infrastruktur işlərinin görüldüyünü, məhsul təhlükəsizliyi və istehlakçı məlumatları ilə bağlı məsuliyyətlərini anladıqlarını və bu sahədə ciddi addımlar atdıqlarını bildiriblər. Onlar həmçinin Türkiyədə nümayəndəlik açmaq üçün təşəbbüs etdiklərini və ölkəyə daxil olan məhsullara görə məsuliyyət daşımağa hazır olduqlarını qeyd ediblər.

Bəs Azərbaycanda necə, xarici onlayn platformalardan ticarətə keyfiyyət, təhlükəsizlik və ekoloji təmizlik baxımından nəzarət edilirmi?

**Azad İstehlakçılar Birliyinin rəhbəri Eyyub Hüseynovun "Yeni Müsavat"a dediyinə görə, Azərbaycandan "Temu"ya giriş dayandırılmalıdır:** "Bizə bu platformadan o qədər çox şikayət daxil olur ki, saysız-hesabsız. Platforma aqressiv reklam aparmaqla insanların diqqətini cəlb edib. Amma onun təqdim etdiyi malların əvəzində sifarişçilərə tamam fərqli məhsullar göndərilir. Məsələn, hamam qətvəsi sifariş edənə uzunluğu 25 sm olan əl dəsmalı, saat sifariş edənə odun parçası göndərilir. Ən pisi budur ki, istehlakçı pulunu geri ala bilmir, onun şikayətinə baxılmır, belə imkan yaradılmır. Yəni "Temu" tamamən istehlakçı hüquqlarını tapdalayan, ona məhəl qoymaya, aldadan bir şirkətdir. Hətta dövlət orqanlarına müraciət də nəticəsiz qalır".

**Birlik rəhbəri qeyd edir ki, getdikcə onlayn ticarət fiziki ticarəti üstələyir:** "Buna görə də onlayn ticarət sahəsində istehlakçı hüquqlarının qorunması ən qısa müddətdə təmin olunmalıdır, ticarət olunan malların keyfiyyətinə nəzarət mexanizmləri yaradılmalıdır. Yoxsa vəziyyət daha da pisləşəcək".

Qeyd edək ki, müvafiq sorğu ilə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə müraciət etmişik. Cavabı oxucularla bölüşəcəyik.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 132 (8742) 31 iyul 2025



## Xaricdə təhsil almış daha 46 nəfərin diplomu tanınmadı

**İyun ayı üzrə 613 müraciətçinin 567-si barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 46 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.**

Bu barədə TKTA-dan məlumat verilib.

Bildirilib ki, mənfi qərarla yekunlaşan müraciətlərə nümunə olaraq 16 fakt üzrə tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olması, 6 dövlət nümunəli olmayan diplom, 5 təhsilalma forması, 4 tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olması və əhəmiyyətli fərq (kredit sayı), 3 akkreditə olunmamış ali təhsil müəssisəsi (təhsil dövrünün bir hissəsinə münasibətdə), 3 kollec diplomu ilə bakalavriat uyğunsuzluğu, 2 ekvivalenti olmayan ixtisas, 2 akkreditasiyasız ali təhsil müəssisəsi səbəbilə, 2 akkreditasiyasız ali təhsil müəssisəsi və tədris yükünü mənimsəmək üçün təhsil alınan ölkənin ərazisində tələb olunan normativdən az olması, 1 əhəmiyyətli fərq (kredit sayı), 1 ixtisas uyğunsuzluğu, 1 tədris yükünü mənimsəmək üçün təhsil alınan ölkənin ərazisində tələb olunan normativdən az olması və ixtisas uyğunsuzluğunu göstərmək mümkündür.

Ölkələr üzrə Türkiyə Respublikasından 155, Rusiya Federasiyasından 152, Ukraynadan 144, Belarus Respublikasından 27, Birləşmiş Krallıqdan 27, Gürcüstandan 23, Polşa Respublikasından 9, Amerika Birləşmiş Ştatlarından 8, İtaliya Respublikasından 6, Almaniya Federativ Respublikasından 5, Çin Xalq Respublikası, İran İslam Respublikası, Macarıstan, Qazaxıstan və Qırğız respublikalarının hər birindən 4, İsveç Krallığı və Litva Respublikasından 3, Avstriya Respublikası, Belçika Krallığı, Əlcəzair Xalq Demokratik Respublikası, Fransa Respublikası, Norveç Krallığı, Səudiyyə Ərəbistan Krallığı, Yaponiya və Latviya respublikalarının hər birindən 2, həmçinin Estoniya, Hindistan, İndoneziya, İraq Respublikası, İsveçrə Konfederasiyası, Mozambik Respublikası, Niderland Krallığı, Nigeriya Federativ Respublikası, Portuqaliya Respublikası, Qambiya Respublikası, Rumıniya, Somali Federativ Respublikası, Şri-Lanka Demokratik Sosialist Respublikası, Sudan və Tacikistan respublikalarının hər birindən isə 1 müraciət qeydə alınıb.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, hüquqşünaslıq üzrə 139, yanğın təhlükəsizliyi mühəndisliyi üzrə 31, biznesin idarə edilməsi üzrə 28, menecment üzrə 26, tibb üzrə 26 müraciət qeydə alınıb.

## Kolleclərə ixtisas seçimi bu gün başlayır

**“Abituriyent” jurnalının 3-cü nömrəsində 2025/2026-cı tədris ili üçün Azərbaycan Respublikasının ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, qəbul aparılan ixtisaslar, onların plan yerləri, elektron ərizə verən abituriyent üçün təlimat, “Abituriyentin elektron ixtisas seçimi ərizəsi”nin nümunəsi və digər zəruri materiallar Azərbaycan və rus dillərində təqdim edilib.**

Bu barədə Dövlət İmtahan Mərkəzi məlumat yayıb. Bildirilib ki, “Ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə 2024-cü ilin tələbə qəbulu müsabiqəsində formalaşmış keçid balları” xüsusi buraxılışda isə ixtisaslar üzrə minimal keçid balları dərc edilib.

Qeyd edilib ki, ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ixtisas seçimi 31 iyul - 7 avqust tarixlərində elektron formada aparılacaq.

# DTX bəzi abituriyentləri istintaqa cəlb edib

## Dövlət İmtahan Mərkəzinin Aparat rəhbəri qəbul imtahanlarında bir sıra abituriyentləri xüsusi gizli texniki avadanlıqlarla təchiz edən şəbəkənin ifşasından danışdı

**Avqust ayının ortalarında ali təhsil müəssisələrinə ixtisas seçimi aparılması planlaşdırılır.**



Bunu Dövlət İmtahan Mərkəzinin Aparat rəhbəri Vəfadar Misirov jurnalistlərə açıqlamasında deyib. “Builki ixtisas seçimində 60 mindən artıq plan yeri elan olunub və 126918 nəfər qeydiyyatdan keçib. Hazırda I-IV ixtisas qrupları üzrə qabiliyyət imtahanları və apelyasiyalar davam edir. Bu proses yekunlaşdıqdan sonra ixtisas seçimi ilə bağlı abituriyent jurnalının 4-cü nömrəsi çap olunacaq. Bundan əlavə, "İxtisas seçimində nələrə diqqət edilməli?" broşurları da çap olunacaq”.

O bildirib ki, hələ qabiliyyət imtahanları və apelyasiyalar davam edir: “İxtisas seçimi 10 gün davam edəcək.

**V.Misirov deyib ki, keçid ballarının artıb-azalması məsələsi hər zaman ictimaiyyətin diqqət mərkəzində olub, lakin bu rəqəmlərin əvvəlcədən dəqiq proqnozlaşdırılması mümkün deyil**: “Əslində keçid ballarının necə olacağı yalnız abituriyent jurnalı dərc edildikdən sonra müəyyən qədər proqnozlaşdırıla bilər. Yəni hansı ixtisas qrupunda, hansı ixtisas üzrə rəqabətin necə formalaşacağına dair ümumi təsəvvür yaranır. Amma bu da tam dəqiq deyil. Hər il müəyyən ixtisaslar üzrə rəqabət daha yüksək olur. III ixtisas qrupunda hüquq, IV qrupda tibb, I qrupda isə kompüter elmləri və informasiya texnologiyaları sahələri üzrə qəbul hər zaman ciddi rəqabət tələb edir. Bu ixtisaslarda keçid ballarının yüksək olması təbiidir”.

V.Misirov onu da deyib ki, avqustun 1-dən sonra ali məktəblərin magistraturalarında boş qalan plan yerləri ilə bağlı “Magistr” jurnalı dərc olunacaq və həmin yerlər üzrə ixtisas seçiminə start veriləcək.

O bildirib ki, avqustun ortalarına qədər magistratura ilə bağlı bütün proses yekunlaşdırılacaq. V.Misirov müsabiqə qaydalarında bu il hər hansı ciddi dəyişikliyin gözlənilmədiyini də açıqlayıb.

Aparat rəhbəri sosial şəbəkələrdə müəyyən imtahan qay**dalarını pozan şəbəkələrin ifşa olunmasına dair məlumatlara da münasibət bildirib. O deyib ki, DİM hər zaman imtahanların şəffaflığı üçün tədbirlər görür:** “İmtahan qaydalarını pozanlarla bağlı vaxtından, yerindən asılı olmayaraq pozuntuların səviyyəsinə uyğun olaraq tədbirlər görülür. Hüquq-mühafizə orqanlarına müraciət edilib, bir neçə abituriyent istintaqa cəlb edilib. Prosesin nəticələri barədə istintaq bitəndən sonra məlumat dərc ediləcək”.

Xatırladaq ki, ali məktəblərə qəbul imtahanında müsbət nəticə əldə etmək məqsədilə bir sıra abituriyentləri xüsusi gizli texniki avadanlıqlar komplekti (mikroqulaqcıq, mikrokamera, mini telefon, naqil, Mi-Fi routeri və s.) ilə təchiz edən şəbəkə ifşa olunub. Əməliyyat Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilib.

Qeyd olunub ki, hazırda kütləvi informasiya vasitələrində yayılan və bəzi imtahanlarda binanın girişində yoxlama zamanı iştirakçıların üzərlərində komplekt halda xüsusi ötürücü qurğuların (“Mifi” aparatı, mikroqulaqlıq, telefon, kamera və s.) aşkarlanması və bununla bağlı Dövlət İmtahan Mərkəzinin hüquq-mühafizə orqanlarına müraciət etməsi faktları doğrudur: “Qeyd olunan faktlarla bağlı hazırda müvafiq qurumlar tərəfindən istintaq davam etdirilir. Nəticə barədə ictimaiyyətə əlavə məlumat veriləcək. Dövlət İmtahan Mərkəzi gələcək imtahan iştirakçılarına müraciət edərək tələb olunan imtahan qaydaları ilə bağlı diqqətli olmağa çağırır, həmçinin valideynlərdən xahiş edirik ki, övladlarını imtahan binasına yola salarkən belə məqamların vacib olduğunu onların diqqətinə çatdırmağı unutmasınlar. Bu sahədə mövcud tələbləri pozan şəxslərə qarşı ciddi tədbirlərin görülməsi davam etdiriləcək”.

❑ **“Yeni Müsavat”**

## Bu il məktəbli avtobusları fəaliyyətə başlayacaqmı?

**Dünyanın əksər inkişaf etmiş ölkələrində məktəblilər üçün nəzərdə tutulmuş xüsusi servis xidməti mövcuddur. Bu sistem həm nəqliyyatdakı tıxac problemini azaldır, həm də işləyən valideynlərin yükünü yüngülləşdirir. Lakin Azərbaycanda uzun illərdir gündəmdə olan bu məsələ hələ də reallaşmayıb.**



Şagirdlərin ünvana rahat çatması üçün “Məktəbli avtobusu” layihəsinin həyata keçirilməsi planlaşdırılır".

Bunu elm və təhsil naziri Emin Əmrullayev bir neçə müddət əvvəl Xəzər TV-yə müsahibəsi zamanı deyib. Emin Əmrullayevin sözlərinə görə, paytaxtdakı “Məktəbli avtobusu” layihəsində məntiq tamamilə fərqlidir və layihənin üzərində hazırda işlər gedir, yaxın zamanda bunun təqdimatının olması planlaşdırılır.

“Məktəbli avtobusu” layihəsi həm paytaxt, həm də bölgə məktəbləri üçün nəzərdə tutulur. Ekspertlərə görə, bu avtobuslar xüsusilə bir kənd məktəbindən digərinə və ya rayon mərkəzinə şagirdlərin rahat daşınmasını təmin edə bilər. Paytaxt məktəblərində məktəbli avtobuslarının tətbiqi eyni zamanda yol-nəqliyyat sistemində sıxlığın qarşısının alınmasına da hesablanmış bir addımdır.

Bəs bu sahədə hansı maneələr mövcuddur və problemin həlli üçün hansı addımlar atılmalıdır?

Mövzu ilə bağlı Bizim.media-ya açıqlama verən **Milli Məclisin deputatı Ceyhun Məmmədov** bildirib ki, məktəblilərin daşınması ilə bağlı sistemin qurulmaması təkcə valideynlər üçün deyil, ümumilikdə cəmiyyət üçün ciddi problemlər yaradır: “Bu gün həqiqətən də bu məsələ bir problem kimi cəmiyyətimizdə özünü göstərir. Valideynlərin əksəriyyəti övladlarını məktəbə şəxsi nəqliyyat vasitələri ilə aparıb-gətirir. Bu isə səhər saatlarında paytaxtda və iri şəhərlərdə tıxac problemini daha da artırır. Hesab edirəm ki, bu istiqamətdə ciddi araşdırmalara ehtiyac var”.

**Deputat məsələni büdcə ilə bağlı texniki çətinliklərin də ləngitdiyini istisna etmir:** “Əlbəttə, burada maliyyə məsələsi də rol oynayır. Lakin məktəblərin publik hüquqi şəxsə çevrilməsi prosesi tamamlandıqdan sonra bu istiqamətdə konkret addımların atılması mümkündür. Nəticə etibarilə həm valideynlərin, həm də cəmiyyətin tıxac problemi qismən də olsa aradan qalxacaq”.

Qeyd edək ki, rəsmi açıqlamalara görə, ümumi təhsil və məktəbəqədər təhsil müəssisələrində təhsil alanların rahat və təhlükəsiz daşınması məqsədilə məktəb avtobuslarından istifadənin təşkili 2025-2030-cu illərdə planlaşdırılır.

Yeni MÜSAVAT
N 132 (8742) 31 iyul 2025

# Ev yıxan "adətlərimiz"- başlıq pulu, cehiz davası...

## Bəzi valideynlər hələ də cehiz, başlıq pulu kimi köhnə anlayışlara köklənmiş şəkildə düşünürlər, bu da sonda...

**Azərbaycanda cehiz, qızıl, başlıq pulu və ev təmiri - bu sözlər sadəcə maddi məsələlərin adı deyil, gənclərin həyatını, rahatlığını məhdudlaşdıran, gələcək arzularını zəncirə vuran ənənələrin simvoludur. Bu yaxınlarda rayonlarda birində cehiz məsələsinə görə gənc oğlanın canına qıyması bu ənənələrin nə qədər faciəvi nəticələrə səbəb olduğunu bir daha gündəmə gətirdi.**

**Tənqidçi, publisist Günel Novruz** Kulis.az-da yayımlanan müəllif yazısında son hadisəyə işıq salaraq mental problemləri qələmə alıb. Onun qeydlərinə görə, bu ənənələr yüzilliklərdən gələn bir yük kimi, cəmiyyətimizin ruhunu boğan, insanları seçim azadlığından məhrum edən, sanki görünməz, amma qırılmaz tellərlə hörülmüş taleyə çevrilib. **Sitat:** "Hər il minlərlə gəncin ailə qurmaq arzusu maddi narahatlıqların, sosial təzyiqlərin, valideynlərin "ənənə qoruyuculuğu" adı altında süni şəkildə yaratdığı ağır öhdəliklərin altında əzilib məhv olur".

Qeyd edək ki, Ağdaşın Ləki qəsəbəsində cehiz məsələsi üzündən 23 yaşlı gəncin həyatına son qoyduğu iddia edilir. Hadisədən sonra oğlan evi qızın ailəsini, qız evi isə oğlanın ailəsini günahlandırır. İnsanlar da bu məsələdə ikiyə bölünüb. Yaşanan faciə bir ailənin dramı deyil. Bu, cəmiyyətin üzləşdiyi dərin sosial və məişət problemidir. Cehiz ənənəsi çox vaxt yeni qurulan ailələrdə təməlin özündə çatların yaranmasına səbəb olur. Əvvəllər ağsaqqal və ağbirçəklərin vasitəçiliyi ilə münaqişələrin sülh yolu ilə həll olunması mümkün idi, lakin indi bu institut zəifləyib. Bundan başqa, gənclərin erkən yaşda ailə qurması da psixoloji və sosial gərginlikləri artırır. Son illər başlıq məsələsi aradan qalxsa da, cehiz mövzusu yenə də ailələr arasında nifaq toxumu səpir.

**Mövzu ilə bağlı sosioloq Üzeyir Şəfiyev "Yeni Müsavat"a açıqlamasında bildirib ki, cehiz, başlıq pulu kimi anlayışlar müasir həyat tərzi fonunda artıq öz aktuallığını itirib:** "Əslində bu məsələlər müasir dövrdə, bu cür həyat reallıqları şəraitində gündəmdə olmamalıdır. Çünki başlıq pulu və cehiz anlayışları daha çox ənənəvi və patriarxal cəmiyyətlərə xas olan dəyərlərdir. Bu, orta əsr düşüncə tərzinin təzahürüdür və müasir cəmiyyətə uyğun deyil. Təəssüf ki, bəzi valideynlər hələ də köhnə düşüncə tərzinə əsaslanaraq, qızları üçün cehiz toplamaqla məşğuldurlar. Halbuki qız müəyyən bir yaşa çatıb ailə quranda həmin cehizin heç bir funksional və estetik əhəmiyyəti qalmır. Çünki zövqlər, tələblər, texnologiyalar və dizayn trendləri hər il dəyişir. 10-15 il əvvəl alınan əşyalar bu gün sadəcə köhnəlmiş, yararsız bir yığının simvoluna çevrilir".

**Sosioloq əlavə edib ki, bu gün gənclər əvvəlki nəsillərdən tam fərqli bir dövrün və düşüncənin daşıyıcılarıdır:** "Yeni nəsil artıq bu ənənələrlə maraqlanmır. Onlar fərqli bir dövrün ruhunda yetişirlər. Təəssüf ki, bəzi valideynlər bu dəyişikliklə barışmaqda çətinlik çəkirlər və hələ də cehiz, başlıq pulu kimi anlayışlara köklənmiş şəkildə düşünürlər. Halbuki müasir dövrdə vacib olan gənclərə doğru tərbiyə vermək, onlara təhsil imkanları yaratmaq və həyatda ayaqda dura bilmələrinə dəstək olmaqdır.

Əgər valideynin imkanı varsa, övladına mənzil şəraitində yardımçı ola bilər. Amma cehiz və başlıq pulu toplamaq uğrunda mübahisələr, qarşıdurmalar yaratmaq ailə qurmaq istəyən gənclərə yalnız zərər verir. Ailənin dayanıqlığı üçün əsas olan anlayış, qarşılıqlı hörmət və sevgidir, maddi yük yox.



Bu gün cəmiyyətdə cehiz və başlıq puluna əsaslanan konfliktlər boş və əsassızdır. Çünki sevgi və qarşılıqlı anlaşma üzərində qurulan ailə modeli istənilən maddi əşyadan daha dəyərlidir. Cehiz və başlıq pulu kimi anlayışlar artıq köhnəlmiş sosial stereotiplərdir. Gənclərin həyat tərzi ilə bu ənənələr arasında kəskin uçurum yaranıb. Ailə xoşbəxtliyinin açarı cehiz və ya başlıq pulu deyil. Ailəni möhkəm edən qarşılıqlı anlayış, sevgiyə əsaslanan münasibət və birgə yaşam üçün yaradılan uyğun şəraitdir".

**Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilov mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlamasında müasir dövrdə toyların kommersiyta xarakteri daşıdığını deyib:** "Azərbaycan cəmiyyətində toy, ailə münasibətləri, nikaha daxil olmaq və boşanma proseslərinə həmişə kəskin münasibət olub. Həm ictimai müzakirələrdə, həm sosial mediada, həm də ümumilikdə cəmiyyətdə bu mövzularda ictimai qınaq və tənqidlər xüsusilə güclü şəkildə özünü göstərir. Çünki istər gənclərin evlənməsi, istərsə də toyla bağlı baş verən hadisələr həmişə insanlarımızı maraqlandırıb və demək olar ki, bütün ailələrin başlıca mövzusuna çevrilib. Ümumiyyətlə, dünyada olduğu kimi, Azərbaycanda da toy və nikah mədəniyyəti, eləcə də boşanma ilə bağlı məsələlər uzun illər ictimai debatların mərkəzində dayanıb. Bu sahədə tam ortaq məxrəcə gəlinməsə də, proseslər müəyyən qədər dəyişir, bəzi məsələlər isə zamanla islah olunur. Son illər xüsusilə toy və cehiz mövzusunda cəmiyyətdə kəskin polemikalar gedir. Ən son baş verən faciəli hadisə - bir gəncin çılçıraq səbəbilə intihar etməsi - sadəcə, fərdi bir dram deyil, həm də müasir Azərbaycan cəmiyyətində ailə institutu ətrafında baş verən ciddi sarsıntılardan biri kimi dəyərləndirilir. Biz nəzərə almalıyıq ki, iki şəxs nikaha daxil olur, toy məclisi təşkil edirsə, bu, onların şəxsi və fərdi xoşbəxtlik günü kimi qəbul edilməlidir. Təəssüf ki, son illər biz toyların daha çox kommersiya xarakterli bir konsertə, yaxud bir növ "biznes hadisəsinə" çevirmişik. Toylara gedib "pul atmaq", sonrakı toyda həmin məbləği geri almaq kimi anlayışlar formalaşıb. Bir tərəfdən bahalı şadlıq sarayları, digər tərəfdən müğənnilər, bir başqa tərəfdən isə toy biznesi ilə məşğul olan kreativ sənaye sahələrinin nümayəndələri, üstəlik cehiz, zinət əşyaları, geyim və digər gözləntilər - bütün bunlar elə ciddi psixoloji və maddi yük yaradır ki, nəticədə 30-40 yaşlı subay gənclər evlənməkdən imtina etməyə başlayırlar".

**Aydın Xana görə, evlənənlərin təxminən 60-70 faizi nikahı boşanma ilə başa vurur:** "Səbəblər soruşulduqda isə önə daha çox cehiz mübahisələri, iqtisadi problemlər, ailə məsuliyyətinin gənclər tərəfindən qəbul edilməməsi və valideyn müdaxilələri çıxır. Baldız, qayınana, qayın kimi anlayışlar ətrafında yaranan münaqişələr isə bu prosesi daha da dərinləşdirir. Nəticədə gənclərimiz evlənmək istəmir, xarici ölkələrə üz tutur, əcnəbi gəlin və ya bəylə evlənməyə üstünlük verirlər. Çünki orada toylar daha sadə keçirilir, ailə məsuliyyəti tərəflər arasında bərabər bölüşdürülür, valideyn müdaxiləsi isə minimuma endirilir. Valideynlər, sadəcə, dəstək rolunu oynayır və toy kommersiya modeli kimi təqdim edilmir.

Azərbaycanda isə elçilik mərhələsində dərhal bəyin diplomu varmı, evi, maşını, işi varmı kimi suallar verilir. Bunu bir məntiq çərçivəsində başa düşmək olar, amma eyni yanaşma gəlinə tətbiq olunmur. Heç kim soruşmur ki, gəlinin işi varmı, gəlir mənbəyi nədir? Sanki ailəni yalnız kişi təmin etməli, qadın isə yalnız cehiz gətirməlidir. Halbuki müasir ailə modeli bərabərlik üzərində qurulmalıdır. Hər iki tərəf müstəqil, eyni hüquqa malik insanlar sayılmalıdır. Əgər boşanma zamanı alınmış daşınmaz və daşınar əmlak bölünürsə, cehiz də həmin qayda ilə bölünməlidir. Əgər qızıl, zinət əşyaları gəlinin adına rəsmiləşdirilibsə və ona qaytarılırsa, cehiz də kişi ilə bərabər şəkildə bölüşdürülməlidir. Ailə quruculuğu yalnız bir tərəfin yükü olmamalıdır. Bu mövzuların açıq şəkildə və səmimi müzakirəsi cəmiyyətimizin nikah və ailə institutunun daha sağlam formalaşmasına töhfə verə bilər".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**



# Azərbaycanda 1 adam ildə 45 kilo ət yeyir

**İnsanların sağlamlığı və sosial rifahı birbaşa qidalanma vərdişləri ilə sıx bağlıdır. Qida istehlakı fərdi seçim olmaqla yanaşı, həm də ölkənin iqtisadi durumu, ərzaq təhlükəsizliyi və mədəni ənənələrini göstərir. Azərbaycanda adambaşına düşən illik ərzaq istehlakı göstəriciləri bu baxımdan maraqlı tendensiyaları üzə çıxarır.**

Modern.az mövzu ilə bağlı Dövlət Statistika Komitəsindən əldə etdiyi 2024-cü ili əhatə edən məlumatları təqdim edir.

Statistikaya görə, Azərbaycanda bir nəfər il ərzində orta hesabla 256,3 kq süd və süd məhsulu istehlak edir. Bu göstərici ölkədə süd məhsullarının qidalanmada əsas yer tutduğunu göstərir. Digər yüksək istehlak olunan məhsul təzə çörəkdir. Belə ki, il ərzində ortalama azərbaycanlı 115,9 kq təzə çörəkdən istifadə edir. Kartofa gəlincə isə, il ərzində bir azərbaycanlı təxminən 80,2 kq kartof istehlak edir.

Azərbaycan əhalisi ildə adambaşına 44,9 kq ət və ət məhsulu, eləcə də 195 ədəd yumurta istehlak edir. Qeyd edək ki, ÜST-nin Tədqiqat Agentliyi (IARC) və Dünya Xərçəng Araşdırma Fondunun (WCRF) tövsiyəsinə görə, qırmızı və emal olunmuş ət istehlakı gündəlik minimuma endirilməli, emal olunmuş ətin (sosis, kolbasa və s.) qəbulu az və ya tamamilə məhdudlaşdırılmalıdır. Beynəlxalq tövsiyələrə əsasən bir nəfər ildə ortalama 25-39 kq qırmızı ət yeməlidir.

Balıq və balıq məhsullarının illik adambaşına istehlakı cəmi 8,5 kq-dır. Oxşar vəziyyət düyü üzrə də müşahidə olunur. Belə ki, il ərzində istifadə etdiyimiz düyünün ortalama miqdarı 7,5 kiloqrama qədərdir.

Ölkəmizdə bitki yağı kərə yağından daha çox istifadə olunur. Statistikalar göstərir ki, il ərzində bir nəfərə düşən kərə yağının miqdarı 3,6 kq, bitki yağının miqdarı isə 8,1 kq-dır. Süd məhsulları içərisində pendir azərbaycanlıların ən çox istehlak etdiyi qida hesab olunur. Ortalama azərbaycanlı bir ildə 6,3 kq pendir istifadə edir.

Azərbaycanlılar tərəfindən hər il 139,7 kq bütün növ tərəvəz, 40,3 kq bostan məhsulları və 79,6 kq meyvə və giləmeyvə istehlak edilir. Azərbaycanlıların ən çox istifadə etdiyi meyvələrdən biri də üzümdür, il ərzində bu mövsümü meyvədən ortalama bir nəfər 18,3 kq istifadə edir.

Azərbaycanlılar ildə 26,2 kq şəkər, 14,9 kq qənnadı məmulatları, eləcə də 1,4 kq çay istehlak edirlər. Bu rəqəmlər ənənəvi çay süfrəsi mədəniyyətinin və şirin qidalara olan yüksək marağın davam etdiyini göstərir. Ancaq bu göstəricilər diabet, artıq çəki və digər qidalanma ilə bağlı sağlamlıq problemləri baxımından risk faktorları yarada bilər.



# Astarada gəlin qayınanasını öldürdü

**Astarada qadın qətlə yetirilib. Hadisə rayonun Kakolos kəndində gecə saatlarında baş verib.**

Belə ki, 1970-ci il təvəllüdlü Xalidə Manafova çoxsaylı bıçaq xəsarətləri ilə qətlə yetirilib. Hadisəni törətməkdə şübhəli bilinən qadının gəlini, 2004-cü il təvəllüdlü Ruhanə İmanovanın yeri müəyyən olunaraq saxlanılıb.

Faktla bağlı cinayət işi başlanılıb.



# Ürəyinə stent qoyulanlar bunlara əməl etməlidir

**Azərbaycanda ürək-damar cərrahiyyəsində ən çox tətbiq edilən müdaxilələrdən biri stent qoyulması və şuntlama əməliyyatlarıdır. Lakin belə xəstələr əməliyyatdan sonra həkim nəzarəti olmadan həyat rejimlərinə dəyişiklik etməklə ciddi səhvlərə yol verirlər.**

"Medicina" xəbər verir ki, kardioloq Kənan Nəhmədov bu xəstələrin ən çox etdiyi səhvləri sadalayıb: "Ən çox rast gəlinən səhv dərmanların qəbulunun vaxtından əvvəl dayandırılmasıdır. Xüsusilə qandurulducu və xolesterin salıcı dərmanlar daimi olaraq qəbul olunmalıdır," - deyə həkim bildirib. Onun sözlərinə görə, bəzi xəstələr eyni dərmanları illərlə dəyişmədən qəbul edir, bu isə doğru yanaşma deyil: "Orqanizm zamanla bu preparatlara öyrəşir, nəticədə onların təsiri azalır. Yeni fəsadların yaranmaması üçün bir neçə ildən bir dərmanların kardioloq tərəfindən yenilənməsi vacibdir".

Həkim stent və baypass əməliyyatı keçirmiş şəxslərə siqaretdən və nikotin tərkibli məhsullardan uzaq durmağı da tövsiyə edib. Çünki bu maddələr damar tıxanmasının əsas səbəblərindəndir. Eyni zamanda belə xəstələrin qazlı içkilərdən, şirniyyatlardan və yağlı qidalardan uzaq durması, fiziki aktivliyi isə artırması tövsiyə olunur: "Bəzi xəstələr əməliyyatdan sonra fiziki aktivlikdən qorxur. Bu, yanlış yanaşmadır. Əksinə, müntəzəm gəzinti və yüngül fiziki fəaliyyət ürək sağlamlığı üçün vacibdir," - deyə Kənan Nəhmədov qeyd edib.

# Qaraciyər transplantasiyasına alternativ müalicə

**Qaraciyər xəstəliklərinin əməliyyatsız müalicəsi üçün yeni üsul tapılıb.**

"Medicina" xəbər verir ki, Birmingem Universitetinin tədqiqatçıları orqan transplantasiyasına alternativ ola biləcək müasir yanaşma hazırlayıblar. Alimlər zədələnmiş qaraciyər toxumasının bərpası üçün hüceyrə terapiyasının effektivliyini artırmağın yolunu müəyyən ediblər.

Bunun üçün tədqiqatçılar xüsusi təbii şəkərlərdən hazırlanmış "yapışqan" örtük tətbiq ediblər. Hüceyrələr bu qabıq sayəsində qaraciyər toxumasına daha yaxşı bağlanır.

Progenitor hüceyrələri əvvəllər də qaraciyərin bərpasına potensial malik olsa da, onların toxumaya yaxşı yapışmaması bu prosesin effektivliyini azaldırdı. İndi isə hüceyrələr hialuron turşusu və ya alginat kimi polisaxaridlərlə örtülərək toxumaya daha güclü bağlanır.

Bu üsul hüceyrələrə zərər vermir və onların qaraciyər hüceyrəsinə çevrilməsinə, zülal sintezi də daxil olmaqla əsas funksiyalarını yerinə yetirməsinə mane olmur. Eyni zamanda, bu hüceyrələr qaraciyərin mikrotoxumalarına və damarların ətrafını örtən endotel hüceyrələrinə daha yaxşı yapışır.

**Tədqiqatın müəllifləri bildirirlər:** "Hazırda qaraciyər transplantasiyası xəstəliyin ağır formaları üçün yeganə çıxış yoludur. Lakin donor orqanların çatışmazlığı problemi var. Hazırladığımız texnologiya isə daha əlçatan və təhlükəsiz alternativ ola bilər".

**Azərbaycanda 910 nəfər orqan transplantasiyası üçün növbə gözləyir. Bu rəqəmlər Səhiyyə Nazirliyi Orqan Donorluğu və Koordinasiya Mərkəzinin açıqlamasında yer alıb. Məlumata görə, onlardan 298-i böyrək, 123-ü qaraciyər, 464-ü sümük iliyi, 25-i isə buynuz qişa transplantasiyasına ehtiyac duyur.**

# Ölkədə orqan gözləyən yarımcan adamlar...

## Donor var, ehtiyac var, qanun isə imkan vermir




Ən diqqətçəkən məqamlardan biri odur ki, bu insanlar arasında uşaqlar da var. Hazırda böyrək transplantasiyası üçün 18 uşaq, qaraciyər üçün 5 uşaq, sümük iliyi üçün 371 uşaq, buynuz qişa üçün isə 2 uşaq növbədədir. Bu statistika göstərir ki, mövcud sistem təkcə böyüklər deyil, azyaşlılar üçün də ciddi risklər doğurur.

Hazırda qüvvədə olan qanunvericilik orqan donorluğunu yalnız "yaxın qohumlar" çərçivəsində mümkün sayır. Yaxın qohum dedikdə valideyn, övlad, bacı-qardaş və həyat yoldaşı nəzərdə tutulur. Bu şəxslər könüllülük və təmənnasızlıq prinsipi ilə donor ola bilər. Bu zaman müvafiq sənədlər toplanaraq, Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi tərəfindən transplantasiya əməliyyatına icazə verilir.

Lakin qohum olmayan şəxslər arasında orqan köçürülməsi yalnız Orqan Donorluğu və Transplantasiyası üzrə Etika Komissiyasının icazəsi ilə mümkündür. Bu prosedur isə çox vaxt uzun çəkir və praktiki olaraq donorla xəstənin arasında ciddi hüquqi maneəyə çevrilir.

Bu səbəbdən də bir müddətdir parlamentdə yeni qanun layihəsi müzakirə olunur. Layihədə qohum olmayan şəxslərin də könüllü donor ola bilməsi ilə bağlı dəyişiklik təklif edilir. Lakin bu məsələ hələlik qanun statusu almayıb, yalnız təklif səviyyəsində qalıb.

Qanuna əsasən, şəxs sağlığında orqanlarının ölümündən sonra transplantasiyası üçün yazılı razılıq veribsə, onun vəfatından sonra bu qərarın həyata keçirilməsi üçün qohumların icazəsi tələb olunmur. Amma praktiki olaraq həkimlər ailə üzvlərinin razılığını gözləyirlər. Bu da bəzi hallarda transplantasiya prosesinin qarşısını alır.

Mütəxəssislər hesab edirlər ki, bu sahədə hüquqi bazanın genişləndirilməsinə ehtiyac var. "Yaxın qohum" anlayışı daha geniş formada tərif edilməli, Etika Komissiyasının qərarvermə mexanizmi sadələşdirilməli, habelə Milli Transplantasiya Bankı yaradılmalıdır. Belə bir sistem donor ehtiyatlarının və gözləyən xəstələrin vahid bazada cəmlənməsinə və daha operativ qərarların verilməsinə imkan yaradardı.

Əks halda, hər il onlarla insan orqan çatışmazlığı səbəbindən həyatını itirməyə davam edəcək. Gözləmək isə bu insanlar üçün ölüm riskini artırmaqdan başqa bir şey deyil.

**Tanınmış vəkil Əkrəm Həsənov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, orqan transplantasiyasında məhdudiyyətlər bu işin orqan alverinə çevrilməsinin qarşısını almaq məqsədilə tətbiq edilir:** "Yaxın qohumun öz orqanını niyə verdiyi aydındır. Çünki o, öz yaxınını, əzizini xilas etmək istəyir. Qohum olmayanların da belə niyyətlərinin olması istisna deyil. Dost, tanış könüllü donor olmaq istəyər. Amma bu hal da donor alverinin olmayacağını təkzib etmir. Faktiki olaraq pul qarşılığında şəxs öz orqanını sata bilər. Yaxud da donor olan şəxsi kimlərsə buna məcbur edə bilər ki, pul qazansın. Bir sözlə, orqan transplantasiyası biznesə çevrilə bilər. Buna görə də etik nöqteyi-nəzərdən məhdudiyyətlər qoyulur. Səhiyyə Nazirliyinin nəzdindəki Orqan Donorluğu və Transplantasiyası üzrə Etika Komissiyası da bunu araşdırır ki, qohum olmayan donorun hansı maraqları var. Həmin komissiyada yalnız tibb işçiləri deyil, ictimaiyyət tərəfindən də müəyyən olunmuş şəxslərdir. Onları Səhiyyə Nazirliyi təyin edir. Mən hesab edirəm ki, komissiya üzvlərini ictimaiyyətin də müzakirəsi nəticəsində təyin etmək lazımdır. Bununla da komissiyanın işini tezləşdirmək olar. Elə mexanizm olmalıdır ki, komissiya müraciətə tez cavab versin, digər tərəfdən isə təhlükəsizlik təmin edilsin. Bu baxımdan ictimai nəzarət olsa, bizdə əminlik olar ki, komissiya "əli əyrilik" etmir.

Bu halda ona imkan vermək olar ki, məsələyə daha tez baxsın. Hazırda qanunda komissiyanın bu müraciətlərə hansı müddət ərzində cavab verməli olduğu qeyd edilməyib. Yaxşı olardı ki, müəyyən müddət təyin edilsin. Çünki elə xəstələr var ki, onlara təcili orqan köçürülməlidir, həyatı bundan asılıdır.

Hər bir halda bu sahədə qanunda daha dəqiq hüquqi baza yaratmağa ehtiyac var. Qanunda komissiya üzvlərinin Səhiyyə Nazirliyi tərəfindən seçilməsi halı da dəyişdirilməlidir. Məsələn, komissiyanın üzvü olan mətbuat nümayəndəsini Mətbuat Şurası, hüquqşünası Vəkillər Kollegiyası təyin etsin. Belə olan halda onlar Səhiyyə Nazirliyindən asılı olmayacaqlar. Əks halda, belə çıxır ki, nazirlik nə desə, komissiya onu yerinə yetirəcək".

**Tanınmış həkim, tibb elmləri doktoru, professor Adil Qeybulla** qəzetə açıqlamasında deyib ki, ailə üzvülərinin bir-birinə donorluq etməsi çarəsizlikdən doğan situasiyadır. Onun sözlərinə görə, insanlar öz yaxınlarını itirməmək üçün belə addıma məcbur olurlar: "Dünyanın heç yerində belə bir şey yoxdur. Beyin ölümü keçirmiş insanlardan götürülən orqanlar donor bankına təhvil verilir və növbəli şəkildə insanlar orqanla təmin edilir. Bunlar şəffaf və ümumi ictimai nəzarət şəklində həyata keçirilir. Ona görə də bu ölkələrdə qardaş və bacıdan, valideynlərdən orqan transplantasiya etmək zərurəti yoxdur.

Kənar şəxslərdən orqan götürmək isə çətin məsələdir. Çünki bunun hamısının altında maddi maraq və kriminal var. Buna görə də bizdə bu məsələlərə ciddi yanaşırlar və bu, doğru addımdır. Filantroplar (ehtiyacı olanlara kömək məqsədilə fəaliyyət göstərən insanlara deyilir) bəzən öz orqanlarından vaz keçirlər. Bu, yoxlanılır və təsdiq edilir. Belə olan halda şəxsin orqanından istifadə etmək olar. Azərbaycanda hər şeydən öncə donor bankı və beyin ölümü keçirən şəxslərdən donor götürmə qaydaları təsdiq edilməlidir. Təəssüf ki, bizim insanlar ölmüş yaxınlarından orqan götürməyə qoymurlar. Bununla bağlı maarifləndirmə aparılmalı, psixoloji təsir göstərilməlidir ki, insanlar bilsin ki, əslində burada hansısa günah iş görülmür. Əks halda, donor mənbəyi tapmaq çətin olacaq və daim də bu formada davam edə bilməyəcək".

❑ **Sahənə RƏHİMLİ, "Yeni Müsavat"**

**Elan:**

**Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin tabeliyində olan Sosial Xidmətlər Agentliyinin Qazax-Tovuz Regional Filialı tərəfindən Bağırov Hicran Bağır qızının adına verilmiş 001203 saylı "Şəhid ailəsinin üzvü" vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 132 (8742) 31 iyul 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

**Azərbaycan cəmiyyətində vətənpərvərlik yalnız bir ideya deyil, həm də tarixi təcrübə, milli yaddaş və gələcəyə baxış bucağıdır. Bu dəyərin formalaşmasında, yaşadılmasında və yeni nəsillərə ötürülməsində medianın rolu danılmazdır. Əsrlər boyu xalqımız torpaq, kimlik və müstəqillik uğrunda mübarizələr aparıb. Bu mübarizələrin ən təlatümlü mərhələlərində - istər Birinci Qarabağ müharibəsi, istərsə də 44 günlük Vətən müharibəsi zamanı mətbuat həm ön cəbhədə, həm də arxa cəbhədə yer aldı. Lakin vətənpərvərlik yalnız müharibə dönəmlərində deyil, sülh şəraitində də qorunmalı, möhkəmləndirilməli və inkişaf etdirilməlidir. Məhz bu nöqtədə media öz təsiredici gücü ilə önə çıxır.**



# Vətəni sevdirmək üçün əvvəlcə tanıtmaq lazımdır

## Peşəkar və məqsədyönlü media fəaliyyəti milli ideyaların yaşadılması və gələcək nəsillərə ötürülməsində mühüm vasitədir

Bu gün Azərbaycan mediası milli ruhun daşıyıcısı kimi çıxış etməklə yanaşı, vətəndaşlarda dövlətə, orduya, dəyərlərə bağlılıq hissini gücləndirən əsas platformalardan biridir. Televiziya proqramlarından tutmuş onlayn xəbər portallarına, sosial media layihələrindən sənədli filmlərə qədər geniş bir spektrdə vətənpərvərlik mövzusu gündəmə gətirilir. Bununla belə, bəzən bu yanaşmanın şablon ifadələrlə məhdudlaşması, dərin məzmunlu, tənqidi və təhlilyönümlü materialların azlığı ciddi müzakirə mövzusuna çevrilir.

Hazırkı reallıqda əsas çağırışlardan biri vətənpərvərlik anlayışını yalnız fədakarlıqla deyil, həm də əmək, təhsil, ictimai məsuliyyət prizmasından işıqlandırmaqdır. Media bu anlayışı gündəlik həyatın ayrılmaz parçası kimi təqdim etməlidir. Çünki bu dəyərin daşıyıcıları yalnız cəbhədə döyüşənlər deyil, həm də ölkənin inkişafına səy göstərən, milli maraqları müdafiə edən vətəndaşlardır. Bu kontekstdə medianın üzərinə düşən məsuliyyət sadəcə informasiyanı ötürmək yox, həm də milli kimliyi formalaşdırmaq və möhkəmləndirməkdir.

Qafqazda güclü iqtisadiyyata və modern orduya malik dövlətə çevrilən Azərbaycan üçün hazırda ən aktual olan məsələlərdən biri cəmiyyətdə medianın da köməyi ilə milli mənlik şüurunu, vətənpərvərlik mövzusunu diqqətdə saxlamaqdır. Vətən müharibəsindən öncə Ali Baş Komandanın çıxışını xatırlayaq: "Gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi xüsusi əhəmiyyət daşıyır. Çünki sirr deyil ki, bu gün bəzi hallarda bəzi xarici dairələr gənclərimizin beyinlərini zəhərləmək, onlara xalqımıza yad olan dəyərləri aşılamaq istəyirlər. Buna qətiyyən yol vermək olmaz. Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Ona görə bu məsələyə çox böyük diqqət verilməlidir. Mən gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə əlaqədar gedən prosesləri müsbət qiymətləndirirəm".

Beləliklə, Azərbaycan mediası milli-mənəvi dəyərləri yaşatmaqla bərabər, vətənpərvərlik ideyasını cəmiyyətin bütün qatlarına çatdırmaq və onun müxtəlif təzahür formalarını önə çıxarmaq kimi vacib missiyanı daşıyır.

Son illərdə informasiya müharibəsinin artması və qlobal media təsirlərinin güclənməsi fonunda yerli medianın rolu daha da aktuallaşıb. Xüsusilə sosial şəbəkələr vasitəsilə yayılan manipulyativ, yanlış və ya qeyri-obyektiv məlumatlar fonunda, peşəkar və prinsipial media orqanlarının milli dəyərləri qoruyan, reallıqları düzgün əks etdirən və maarifləndirici rol oynaması zərurətə çevrilib. Media mühitində vətənpərvərliyi təşviq edən rubrikaların, müsabiqələrin, ictimai təşəbbüslərin və tematik verilişlərin təşkili həm də gənclər arasında milli şüurun möhkəmləndirilməsi üçün mühüm alətlərdir. Bu baxımdan, dövlət qurumları ilə media subyektləri arasında əməkdaşlıq daha da genişləndirilməli, bu istiqamətdə vahid strateji yanaşma formalaşdırılmalıdır. Vətənpərvərlik ideyasının dolğun və davamlı təbliği üçün medianın imkanları çox genişdir. Əsas məsələ bu imkanlardan düşünülmüş, peşəkar və məsuliyyətli şəkildə istifadə etməkdir.

**Azad Azərbaycan Partiyasının sədri Akif Nağı** hesab edir ki, müxtəlif növ media resurslarında - TV, saytlarda və s. vətənpərvərlik mövzusu diqqətdən kənarda qalıb. "Yeni Müsavat"a şərhində A.Nağı bildirdi ki, vətənpərvərlik mövzusuna həsr olunmuş yazılar yazılsa da, tədbirlər keçirilsə də, bu istiqamətdə görülən işlər yetərli deyil: "Milli mənlik şüurunun aşılanması son dərəcə önəmli məsələdir. Sosial mediada vətənpərvərliklə bağlı müzakirə aparılır, lakin çox zaman bu müzakirələr səviyyəsiz olur. Sanki bu işlə hansısa mərkəzlər məşğuldur. Buna görə də hesab edirəm ki, Azərbaycanda vətənpərvərlik işinin aparılması, ən vacibi isə milli mənlik şüurunun aşılanması istiqamətlərində mediada məqsədyönlü iş aparılmalıdır. Əks halda, bir müddətdən sonra vəziyyət ürəkaçan olmayacaq. Fikrimcə, iki istiqaməti xüsusi vurğulamaq lazımdır. Milli özünüdərk prosesi, əcdadlarımız kimlərdir kimi məsələlər tarixi kontekstdə ciddi şəkildə tədqiq olunmalıdır. Milli mənlik şüuru tarix vasitəsilə inkişaf etdirilməlidir. Tariximizə də o qədər hücumlar olub ki?! Son 100-200 il ərzində Çar imperiyası, daha sonra da SSRİ dövründə Azərbaycan tarixinin üzərindən sanki xətt çəkilib. Vətənimiz Azərbaycanı tanıtmalıyıq. Böyük ziyalımız Xudu Məmmədov deyirdi ki, gənclərə "Vətəni sevin!" demək lazım deyil, gənclərə Vətəni tanıtmaq lazımdır, tanıyandan sonra özləri sevəcəklər. Mətbuat bu istiqamətdə müvafiq dəstəyi verməlidir. Müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda canını fəda etmiş qəhrəmanları tanıtmaq lazımdır. Azərbaycan, ərazisində yaşayan hər kəsin - türklərin, talışların, ləzgilərin, tatların və başqa onlarla azsaylı xalqın Vətənidir. Bu ideya təbliğ olunmalıdır. Bu məsələdə xarici mərkəzlərin daha güclü rol oynadığı qənaətindəyəm. Cənubdan, o cümlədən şimaldan da bu istiqamətdə müəyyən təsirlər var. Bu kimi problemlərin aradan qaldırılması çox vacibdir".

**A.Nağının fikrincə, dövlətin inkişaf edə bilməsi üçün vətənpərvərlik hisslərinin təbliği çox önəmlidir**: "Bəzən milli mənlik şüurunun təbliği, yaxud tariximizlə bağlı fikir səsləndirəndə insanların bunu anlamadığını sezirəm. Sanki müəyyən sifarişlər yerinə yetirirlər... Elə hücumlar olur ki, elə bəsit fikirlər səsləndirirlər ki?! Düşmənin dediyinə daha çox inanırlar, saxtalaşdırılmış tariximizi daha çox qəbul edirlər, nəinki Azərbaycanın real tarixini. Hazırda belə bir problemimiz var. Bu problemin aradan qaldırılması üçün medianın dəstəyindən istifadə olunmalıdır. Müəyyən uğurlar, nəticələr var, işlər görülür, amma nəticə ürəkaçan deyil. Metodlar, konsepsiya işlənib hazırlanmalıdır, sistemli fəaliyyət qurulmalıdır".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Nigar HƏSƏNLİ**

# Şəhid övladları Avstriyada

## Zalsburq və Vyana şəhərlərində keçirilən "Əmanətə sədaqət" yay düşərgəsi davam edir



**"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi və Avstriya Azərbaycanlıları Cəmiyyətinin təşkilatçılığı, "Azərbaycan Hava Yolları" (AZAL) QSC, "Azərlotereya" ASC və Azərbaycan Diasporuna Dəstək Fondunun tərəfdaşlığı ilə tələbə şəhid övladları üçün Avstriyanın Zalsburq və Vyana şəhərlərində keçirilən "Əmanətə sədaqət" yay düşərgəsi davam etməkdədir.**

Bu barədə ictimai birlikdən məlumat verilib.

Düşərgədə yerli və xarici universitetlərdə təhsil alan və yüksək akademik göstəricilərə malik 22 şəhid övladı iştirak edir.



Düşərgənin ilk günündə Zalsburq Azərbaycan Evində düşərgənin açılış mərasimi keçirilib. Açılış mərasimində çıxış edən "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova "Əmanətə sədaqət" layihəsi çərçivəsində hər il həyata keçirilən bu düşərgələrin layihənin şəhid övladlarının şəxsi və peşəkar inkişafına töhfə verən mühüm təşəbbüs olduğunu vurğulayıb. Daha sonra çıxış edən Avstriya Azərbaycanlıları Cəmiyyətinin rəhbəri Fərid Əzizov isə qəhrəman şəhidlərimizin övladlarını Avstriyada qarşılamaqdan böyük qürur duyduqlarını bildirib.

Açılış mərasimində Avstriya və Sloveniyada yaşayan Azərbaycan diasporunun fəal üzvləri, eləcə də Avstriyada fəaliyyət göstərən Türkiyə diasporunun nümayəndələri iştirak ediblər.

Günün ikinci yarısında peşəkar təlimçi Emir Turan tərəfindən iştirakçılar üçün "Motivasiya" mövzusunda təlim keçirilib. Təlim interaktiv formatda təşkil olunub və gənclər tərəfindən böyük maraqla qarşılanıb.

Düşərgənin ikinci günündə iştirakçılar YUNESKO-nun Ümumdünya Mədəni İrsi siyahısına daxil olan Hallştadt qəsəbəsini ziyarət edərək buradakı mədəni abidələrlə tanış olublar. Daha sonra iştirakçılar üçün Zalsburqda yerləşən Mirabell sarayına və Salzach çayı sahilinə ekskursiya təşkil olunub.

Qeyd edək ki, 28 iyul-2 avqust 2025-ci il tarixlərində keçiriləcək düşərgə ərzində iştirakçılar karyera planlaması, şəxsi inkişaf, liderlik və motivasiya mövzularında peşəkar təlimlərə qatılacaq, həmçinin Avstriya mədəniyyətini yaxından tanıyacaq və tarixi bölgələrə maarifləndirici səfərlər edəcəklər.

YENİ MÜSAVAT

İyul

Son səhifə

N 132 (8742) 31 iyul 2025


# Bunları bilirsinizmi?

* Bədənimizdəki damarların ümumi uzunluğu 96 min kilometrdir. Bu uzunluqla dünyanı 3 dəfə dolaşmaq olar.
* İnsan gözü o qədər həssasdır ki, əgər dünya düz olsaydı, 60 km uzaqdakı şam işığını görə bilərdi.
* İnsan beyni dəqiqədə 1000 kəlmə oxuya bilər.
* İnsan saçı 12 ton çəkisi olan yük qaldıra bilər.
* İnsan bədənindən 30 dəqiqədə çıxan enerji ilə 4 litr su qaynatmaq olar.
* İnsan bədənində şimpanzedə olan qədər tük var. Lakin onların çoxu görünmür.
* İnsan sümüyü qranit kimi möhkəmdir. Sümüklər 9 ton yük qaldıra bilər.
* İnsan beyni kompüter olsaydı, saniyədə 38 katrilyon iş görə bilər. Dünyanın ən güclü komputeri olan "BlueGene" bu rəqəmin 2/1000 görə bilir.
* Körpələrin əksəriyyəti mavi gözlü doğulur. Lakin ultrabənövşəyi işıqların təsirindən rəng dəyişir.
* Bir dırnağın tam böyüməsi üçün 6 ay lazımdır.
* Böyrəklərimizdə 2 milyona yaxın filtr var ki, onlar da hər dəqiqədə 1,3 litr qan təmizləyir.
* Hər bir insanın özünə xas qoxusu var. Bu qoxu ancaq əkizlərdə eyni ola bilər.
* Çox yuxu görmək yüksək İQ səviyyəsindən xəbər verir.
* Səhər yuxudan duranda 1 sm daha uzun oluruq. Bunun səbəbi onurğa qığırdaqlarımızın gün boyunca yığılmasıdır.
* Bədənimiz hər saniyə 25 milyon yeni hüceyrə istehsal edir.
* İnsan beyni bütün bədənin oksigeninin 20 faizini təkbaşına istifadə edir.
* Bəzi qadınlar çox insanla müqayisədə dünyanı daha rəngli görürlər. İnsanların əksəriyyətində 3 tip rəng qəbuledici olsa da, az qisim qadınlarda bu say 4-5 arasında olur.



## Lamanın köməyi ilə şizofreniyanı müalicə etmək olar

**Fransız tədqiqatçılar siçanlarda şizofreniyanı lama anticisimləri ilə müalicə edə bildiklərini söyləyirlər. Bu beyin xəstəliyi, 18-65 yaş arası təxminən 3,7 milyon ABŞ-liyə ciddi təsir edib. Ancaq evdə bəslənən yunlu bir Cənubi Amerika heyvanı bu xəstəliyin sağalmasında faydalı ola bilər.**

Fransız tədqiqatçılar bu həftə bəyan ediblər ki, immunitet sistemini qoruyan zülallarla zəngin olan lamanın anticisimlərindən istifadə edərək, beyində sinir sisteminin fəaliyyətini tənzimləyən bir neyrotransmitteri hərəkətə gətirəcək, "nanokor" adlanan kiçik bir anticisim parçası hazırlayıblar. Funksional Genomika İnstitutundakı alimlərin damar və ya əzələyə yeritdiyi bu molekul qan-beyin baryerini aşaraq beyin reseptorlarına çata bilib. Bu baryer, beynimizi zərərli maddələrdən qoruyan, sıx birləşmiş hüceyrə qatıdır.

"Nanokor"ların təsirini siçanlar üzərində sınaqdan keçirən alimlər müşahidə olunan əqli çatışmazlıqların aradan qalxdığını görüblər. Tək bir inyeksiya ilə əqli funksiyalarda yaxşılaşma müşahidə olunub və bu təsir bir həftə davam edib. Bu icadın şizofreniyanın müalicəsində yeni bir cığır açacağını təsdiqləmək üçün klinik sınaqların aparılmasına ehtiyac var.

# Şokoladın yaratdığı xəstəliklər...



**Şokolad dünyada məşhur qida olsa da, sağlamlıq üçün təhlükələri az deyil. Təbiət elmləri fakültəsinin dekanı İrina Lyalinanın sözlərinə görə, əsas zərər onun tərkibindəki şəkər və yüksək kalorili olmasıdır. Bu xüsusilə südlü və ağ şokoladda çoxdur. Beləliklə, həddindən artıq istehlak piylənməyə və bununla bağlı sağlamlıq problemlərinə səbəb ola bilər. "Şokoladın tərkibindəki kofein və teobromin həddindən artıq istehlak edildikdə yuxusuzluğa, yüksək təzyiqə və ürək döyüntüsünün artmasına səbəb ola bilər", - Lyalina bildirib.**

O qeyd edib ki, şokoladın bəzi komponentləri allergiyaya səbəb ola bilər. Bu məhsul həm də qida asılılığına səbəb ola bilər, çünki tərkibində şəkər var və dopamin sisteminə təsir göstərir. Ucuz şokoladın tərkibində palma yağı, dadlandırıcılar, qatılaşdırıcılar ola bilər. Lyalinanın fikrincə, gündə ən azı 70% - 20-30 qram təmiz kakaolu tünd şokolad istehlak etmək yaxşıdır.

## Qulaq çöpündən istifadə etməyin - həkim xəbərdarlıq etdi



**Həkim Toni Farmer qulaq təmizliyində pambıq çubuqlardan istifadənin təhlükəli nəticələrə səbəb ola biləcəyini bildirib. O, "İnfobae" nəşrinə açıqlamasında deyib ki, pambıq çubuqlardan istifadə zamanı qulaq kiri qulaq kanalının daha dərin hissəsinə doğru itələnir. Bu isə qulaq yolunun tutulmasına, ağrılara və hətta burun pərdəsinin (baraban pərdəsi) cırılmasına gətirib çıxara bilər.**

Başqa həkim Brüs Stüart əlavə edib ki, qulaq kiri orqanizmin təbii müdafiə vasitəsidir. Onun sözlərinə görə, qulaq yolunu tez-tez təmizləmək dərinin qurumasına, qıcıqlanmaya və ekzema yaranmasına səbəb ola bilər. O, pambıq çubuqlardan imtina etməyi və yalnız qulağın xarici hissəsini təmizləmək üçün nəm salfetlərdən istifadə etməyi tövsiyə edib.



## İnsan sevəndə beyni zəifləyirmiş - alimlər açıqladı

**Sevgi asılılığı beynin fəaliyyətinə mənfi təsir edir. Bunu italiyalı alimlər araşdırıblar. Araşdırmanın nəticələri "Behavioural Brain Research" jurnalında dərc olunub. Belə ki, sevgi insanın yalnız ruhunu yox, eyni zamanda beyin fəaliyyətini də sarsıda bilər.**

Sevgi asılılığı simptomları olan insanlar unutqanlıqdan, gündəlik işlərdə səhvlər etməklə bağlı şikayətlər edirlər. Ən çox narahatlıq və depressiya yaşayanlarda isə bu təsirlər daha kəskin olur. Sosial şəbəkələr də bu asılılığın güclənməsində böyük rol oynayır. Onların çox istifadəsi insanı daha emosional edir, münasibətlərə qarşı real olmayan gözləntilər yaradır.

Alimlər vurğulayırlar ki, sevgi asılılığını, sadəcə, bir "moda xəstəliyi" kimi qiymətləndirməmək lazımdır. Bu, ciddi bir davranış pozuntusudur və mütəxəssis yardımı tələb edir. Problemi vaxtında tanımaq və yardım almaq üçün maarifləndirməyə ehtiyac var.

## 20 ildir iflic olan qadın düşüncəsinin köməyi ilə şəkillər çəkdi



**ABŞ-da 20 ildir tam iflic vəziyyətində yaşayan Odri Kruz İlon Maskın təsis etdiyi "Neuralink" şirkətinin beyin çipi vasitəsilə kompüterdən istifadə etməyə nail olub. Bu barədə "Daily Mail"ə xəbər verir. Məlumata görə, 16 yaşında avtomobil qəzası keçirən və boyun fəqərələrindən ağır zədə alaraq hərəkətsiz qalan 36 yaşlı Odri bu ayın əvvəlində beyninə implant yerləşdirildikdən sonra ilk dəfə yazı yazmağı bacarıb. "20 ildən sonra ilk dəfə adımı yazmağa çalışdım. Hələ öyrəşirəm, amma bu inanılmaz hissdir", - deyə o, sosial şəbəkədə sevincini paylaşıb.**

## Qədim yazıda Musa peyğəmbərin izi arxeoloqları heyrətləndirdi

**Misirin Sina yarımadasında yerləşən 3 800 illik qədim mədənlərin divarında tapılan protosinay yazısı tədqiqatçılar arasında böyük maraq doğurub. İsrailli tədqiqatçı Maykl Bar-Ron bu yazını "zot mi-Moşe" (ivrit dilində "bu Musadan gəlir") kimi oxuyur. Bu isə Bibliyada qeyd olunan Musa peyğəmbərin izlərini real arxeoloji sübutlarla bağlaya bilər. Yazının XII sülalə dövründə - təxminən eramızdan əvvəl 1800-cü illərdə orada işləyən qullar tərəfindən yazıldığı güman edilən 20-dən çox yazıdan biri olduğu bildirilir.**

Qeyd edilir ki, bu yazılar arasında "Əl" adlı tanrının adı və Misir tanrıçası Hatxorun silinmiş adı da var ki, bu da həmin dövrdə dini qarşıdurmaların mövcudluğunu göstərir. Bar-Ron bildirir ki, yazılar arasında köləlik, nəzarətçilər və Baalt kultuna qarşı üsyan barədə qeydlər də yer alır. Bəzi tarixçilər bu dövrü və firon III Amenemhetin "Çıxış" kitabındakı hekayələrlə əlaqələndirirlər. Lakin digər ekspertlər ehtiyatla yanaşır və bu yazıların tam mənasının hələ də mübahisəli olduğunu bildirirlər.

Səhifəni hazırladı: SELCAN


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.